03_27 IYUl-QARA.qxd 1/23/2025 8:22 PM Page 1


# UNİKAL

№03 (2233) 24 yanvar 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az


# Sülh sazişinin dirəndiyi dalan:

## "Cəmi 2 band açıq qalıb, sonrası..."



Səh. 8



## Samir Şərifova yeni vəzifə verildi - Baş nazirdən qərar

*Baş nazirin müavini Samir Şərifova yeni vəzifə verilib. "Unikal"ın məlumatına görə, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Samir Şərifov Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının sədri təyin edilib. O, bu vəzifədə ötən il deputat seçilən Əli Əhmədovu əvəzləyib. Xatırladaq ki, Samir Şərifov bir neçə gün öncə - yanvarın 10-da maliyyə naziri vəzifəsindən azad edilərək, Baş nazirin müavini postuna təyin olunub. Baş nazirin keçmiş müavini Əli Əhmədov Milli Məclisə deputat seçildiyindən Nazirlər Kabinetində vakant vəzifə yaranmışdı. Həmin vakant yer Samir Şərifovun təyinatı ilə doldurulub. Samir Şərifov Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra nazir postuna...*

Səh. 3

## "Azərbaycanda geniş islahatlar aparılıb"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, Trampın hakimiyyəti dövründə ABŞ-Azərbaycan münasibətlərinin necə ola biləcəyindən, struktur islahatlarının davamından, referendumun keçirilməsinin mümkünlüyündən və xüsusi nümayəndəliyin digər rayonlarda da tətbiq...*

Səh. 4

## Bəzi məşhur özəl klinikalar qorxu içində



*Yola salmaq üzrə olduğumuz həftə saxta sertifikatlı plastik cərrahlarla bağlı Səhiyyə Nazirliyi və Baş Prokurorluğun birgə komissiya yaratdığı məlum oldu. Bu barədə Baş prokuror Kamran Əliyevin jurnalistlərə açıqlamasında bildirildi. Baş prokuror onu da dedi ki, məsələ ilə bağlı konkret...*

Səh. 8

## "Zəfər konstitusiyasının qəbul olunması mümkündür" - Komitə sədri



*"Konstitusiya və Suverenlik ili" çərçivəsində müxtəlif yerli və beynəlxalq təşkilatlarla ardıcıl görüşlər keçiriləcək, müzakirələrin təşkil ediləcək. "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında komitə sədri Zahid Oruc deyib.*

Səh. 7

03_27 IYUl-QARA.qxd 1/23/2025 8:25 PM Page 2



# "Verilişə həftədə 3 dəfə çıxan ac, 50 qəpiklik müğənnilər" - Səidə Sultan



***"Dünyanın heç bir yerində televiziya kanalları müğənnidən asılı qalmayıb".***

Bu sözləri müğənni Səidə Sultan sosial şəbəkə hesabında yazıb. Sənətçi hər gün verilişə çıxan ifaçıları və onları dəvət edən aparıcıları tənqid edib:

"Bizim televiziya kanallarımız və ora gələn dəstəsi 50 qəpik, zövqsüzlüyü təbliğ edən, qapı-qapı kanalları gəzən, bir verilişə həftədə üç dəfə çıxan, ac, gözləri doymayan efir acları. Mən təklif edirəm ki, bu görməmiş efir aclarını kanallar ştat işçisi kimi işə götürsünlər. Gedin dincəlin. Müğənni də var ki, adam tapmayanda bir saat qalmış ona deyirlər. Amma danışanda sənəti ağzına yerləşmir".

# "Soyunduqca toyları artır" - Elnarə Abdullayeva

***"Heç kim lovğa-lovğa danışmasın. Gedin, sənət öyrənin, konsertlərlə məşğul olun. Hamı toyun davasını edir. İndiki toyda sənət var?".***

Milli.Az xəbər verir ki, bu sözləri Əməkdar artist Elnarə Abdullayeva "Gün ortası" verilişində deyib. O bildirib ki, əvvəlki toylarda sənət göstərilirdi: "Bakı kəndlərində, rayonlarda baş tutan toylarda dəsgahlar, qəzəllər oxuyardılar. Elə toylar yoxdur. Bu mədəniyyət cəhətdən sıfır nöqtədədir,



bərbaddır. İnsanların bütün şüuru, həyatı, sənətçilərin sənətini ruhunu pozan gərəksiz toylardır. Bir toyun üstündədir bu dava... İndiki toylar çox gərəksizdir. Ancaq rəqsdən ibarətdir, sənətdən danışmaq olmaz? Kim olursan ol, bu toy toydur da! Fərqli toylar da var, bir-ikidir. Başlayır bir az mədəni, hamı ürəksiz oturur ki, ürək sıxandır. Ritmləri dəyişəndə dəyişilir. Bacardıqca, yüksək səviyyədə soyunmaq... Soyunduqca, toyları artır. Mən pis baxmıram. Bütün müğənnilədən söhbət getmir, gedişatdan danışılır".

# "Sponsor deyir ki, çəkilişdə müdiriyyət də düşsün" - Mehdi Sadıq

***"Qəlibləşmiş fikir var: bizim camaat ancaq komediyaya baxır. Bu, insanları axmaq yerinə qoymaqdır".***

Bu fikirləri Baku TV-nin "Qapqara" verilişində aktyor, ssenarist Mehdi Sadıq deyib. O, tamaşaçının yaxşı film və seriallar təqdim edildiyi halda görülən işi təqdir edəcəyini və daha yaxşı işlər gürülməsini istəyəcəyini vurğulayıb. Ssenarist çəkdiyi ekran əsərlərinin televiziyalarda yayımlanmaması məsələsinə aydınlıq gətirərkən söyləyib: "S.Ə.S" serialını televiziya kanallarından biri məndən istədi. Dedilər ki, onsuz da çəkmisən, ver, pulsuz yayımlayaq. Amma heç az məbləğ də olsa, təklif etmədilər. Çəkdiyimiz zəhmətə, xərclədiyimiz pula görə razı olmadıq. Həm də azadlığımızı televiziyadakı senzuraya qurban vermək istəmədik".

M.Sadiq çəkilişlər zamanı sponsorlarla yaşadığı problemlərdən bəhs edib: "Sponsorun yanaşması belədir ki, onun istədiyi olsun. Fərqi yoxdur, məhsulu filmdə necə görünəcək. İşlədiyimiz sponsorlardan birinin məkanında çəkiliş etməli idik. İki gün qalmış zəng edib, "elə edə bilərsiniz ki, müdiriyyət də görüntülərdə olsun?" dedilər. Gör bir az böyük məbləğlər versələr, nələr tələb edərlər".

Aktyor filmi kinoteatrda izləmək marağının az olmasına da münasibət bildirib: "Kinoteatrlarda biletlərin



qiyməti çox bahadır. Tələbələrin çoxu kinoya gedə bilmir. Gedənlər də valideynlərinin imkanı yaxşı olanlardır. Kino da bir biznesdir, ondan pul qazanılmalıdır. Amma kinonu kütləviləşdirmək daha yaxşı variantdır. Bileti 8 manata deyil, 3 manata satmaq lazımdır. Belə olanda filmə baxmağa 10 min nəfər yox, 100 min nəfər gələcək".



# "Həmin müğənnilər mənə qıcıq verir" - Vüsalə Əlizadə

***Aparıcı Vüsalə Əlizadə bəzi müğənnilərin seçdiyi mahnılardan danışıb.***

Axşam.az xəbər verir ki, o, bu haqda verilişində bəhs edib. Vüsalə bildirib ki, bəzi ifaçılar pul qazanmaq üçün klassik bəstələrə müraciət etmir:

"Son vaxtlar bəzi müğənnilər efirə gələndə mənə qıcıq verən söhbət edirlər: deyirlər klassik əsərlər, bəstəkarlardan oxuyurdum, tanınmırdım, sevilmirdim. İndi bu cür bayağı mahnı oxuyuram bütün günü toydayam, xoşbəxtəm, əlimdə dollarlar, avrolar. Yaxşı etdin, oxudun, tanındın. İndi bəstəkar mahnısı oxu, təqdim et".

# "Qardaşım əziyyətimi yerə vurdu" - Müğənni Ülviyyə Namazova

***Müğənni Ülviyyə Namazova qardaşından danışıb gileylənib.***



Sənətçi qonaq oldu "Günaydın Azərbaycan" verilişində özü kimi müğənni olan qardaşı Vüqar Namazov barədə danışıb. "Həmin baş verən cinayət məsələsində üzərimdən keçib barışıq etdi. Ona görə incikliyəm. Bu qədər əziyyət çəkdim. Məsələni ictimailəşdirmişdim. Hazırda küsülüyük".

Xatırladaq ki, bir müddət öncə Vüqar Namazov bıçaqlanması ilə gündəmə gəlmiş, Ülviyyə qardaşı üçün canını belə verəcəyini demişdi. Lakin efirə çıxıb, qardaşının bir sözündən möhkəm küsdüyünü, onun da proqrama qonaq gəldiyi üçün verilişi tərk edəcəyini deyib və studiyadan çıxıb.

# Talıb Tale ata olacaq

***Müğənni Talıb Tale ata olacaq. "Unikal" Xəzər TV-yə istinadən məlumat verir ki, bu barədə sənətçi verilişlərin birində danışıb. Aparıcının "Eşitdim bu yaxınlarda ata olursan?" sualına müğənni "İnşallah" deyə cavab verib.***



Qeyd edək ki, Talıb Tale ötən il mayın 25-də özündən 15 yaş kiçik xanımla ailə həyatı qurub.

03_27 IYUl-QARA.qxd 1/23/2025 8:27 PM Page 3





# Pensiyalar 14.3 faiz, yoxsa 8 faiz artırılır? - Deputat cavab verdi

***Son günlər bizə olan müraciətlərin əksər hissəsi pensiyalardakı artım faizi ilə bağlıdır. Belə ki, gələn aydan pensiyaların neçə faiz artırılacağı hələ də daha çox soruşulan məsələlərdəndir. Bunun əsas səbəbi isə gələn aydan pensiya sistemində iki istiqamətdə artımların olması ilə bağlıdır.***

Bu sözləri Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov bildirib.

Deputat aydınlıq üçün qeyd edib ki, gələn aydan həm minimum pensiya artırılacaq, həm də əmək pensiyaları indeksləşdiriləcək.

"Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncama uyğun olaraq minimum pensiya məbləği bu ilin fevral ayından 280 manatdan 320 manata çatdırılacaq. Bu o deməkdir ki, minimum pensiya alanlar artıq gələn aydan artırılmış məbləği alacaqlar. Yəni, 14.3 faiz artım minimum pensiyalara tətbiq olunacaq. Əgər vətəndaşımız 280 manat, minimum pensiya alırsa, gələn aydan həmin məbləğ 14.3 faiz artırılacaq. Fevral ayından etibarən ölkədə ən aşağı pensiya 320 manat olacaq.

Əmək pensiyalarının indeksləşdirilməsi isə "Əmək pensiyaları haqqında" Qanuna əsasən həyata keçirilir. Sözügedən qanuna əsasən, bütün növ əmək pensiyaları əvvəlki ildə ölkə üzrə orta aylıq maaşdakı artım faizinə indeksasiya olunaraq artırılır. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2024-cü ilin ilk 11 ayında ölkə üzrə orta aylıq əmək haqqı 8.0 faiz artaraq 996.8 manata çatıb. Bu isə o deməkdir ki, ölkə üzrə ötən ilin yekun əmək haqqı artımının təxminən 8.0 faiz olacağı gözlənilir.

İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa onun pensiya məbləğinə artım hesablanacaq.

Qanunvericiliyə əsasən, indeksləşdirmə əvvəlki ilin göstəricisinə uyğunlaşdırıldığına görə 2024-cü ilin dekabrın 31-i daxil olmaqla ötən il pensiya hüququ qazanan bütün vətəndaşların pensiyaları artırılacaq. Belə ki, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2024-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğ artırılır.

Ümumiləşdirsək: minimum pensiya alanlarda artım 14.3 faiz, digər məbləğlə əmək pensiyası alanlarda indeksləşdirmə ilə artım 8 faiz olacaq. Gələn aydan minimum pensiya 320 manat olduğu üçün aşağı pensiya alanlarda bu meyar nəzərə alınacaq".

***Yola salmaq üzrə olduğumuz həftə saxta sertifikatlı plastik cərrahlarla bağlı Səhiyyə Nazirliyi və Baş Prokurorluğun birgə komissiya yaratdığı məlum oldu. Bu barədə Baş prokuror Kamran Əliyevin jurnalistlərə açıqlamasında bildirildi. Baş prokuror onu da dedi ki, məsələ ilə bağlı konkret faktlar var və həmin faktlarla bağlı cinayət işi açılıb, istintaq davam edir. Sitat: "Belə halların bir daha baş verməməsi üçün Baş Prokurorluq aidiyyəti qurumlarla bağlı qabaqlayıcı tədbirlər görür. Bu sahədə problemlər araşdırılır və gələcəkdə baş verməməsi ilə bağlı tədbirlər görülür".***

Xatırladaq ki, iki aydır ölkə gündəmini məşğul edən mövzu aktuallığını itirmək bilmir. Artıq plastik cərrahların ixtisas sənədlərinin yoxlanması üçün Xüsusi Təftiş Komissiyası da yaradılıb. Ötən ilin son tibbi fəaliyyət ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə, sertifikasiya şəhadətnaməsi və s.) bu il yanvarın 31-dək Səhiyyə Nazirliyinə şəxsən təqdim etməlidirlər. Mütəxəssis tərəfindən sənədlər tələb olunan qaydada və tarixədək təqdim edilmədiyi təqdirdə, bu hal onun praktik tibb fəaliyyəti ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə və ya sertifikasiya şəhadətnaməsinin ləğvi üçün əsas olacaq.

"Unikal"a daxil olan məlumata görə, proses yalnız saxta plastik cərrahlarla məhdudlaşmaya bilər. Məsələ burasındadır ki, başqa sahələr üzrə də saxta diplomlu və sertifikatlı həkimlərlə bağlı araşdırmalara start verilməsi mümkündür. Bu isə səbəbsiz deyil: son vaxtlar ayrı-ayrı özəl klinikalarda xəstələrin ölüm halları ilə bağlı mütəmadi xəbərlərə rast gəlinir. Həmin ölüm hallarının həkim səhlənkarlığından baş verdiyi yönündə çox sayda iddialar var. Beplantların yeridilməsi kimi əməliyyatları icra edə bilməz: ""Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, qanunvericiliklə müəyyən olunan qaydada hüquqi şəxs yaratmaqla özəl tibb fəaliyyəti, həmçinin, ali tibb təhsili olan (ixtisasca həkim-stomatoloq) şəxslər tərəfindən hüquqi şəxs yaratmadan fiziki şəxs olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada özəl tibbi praktika üzrə fəaliyyət həyata keçirilə bilər. Stomatoloji ixtisas üzrə terapevtik stomatoloji, ortopedik stomatoloji, ortodontik stomatoloji, cərrahi stomatoloji və diş texniki üzrə lisenziya tələb olunduğundan, uyğun işlər üzrə tibbi praktiki fəaliyyət dövlət sertifikasiya şəhadətnaməsi və lisenziya əsasında həyata keçirilə bilər. Cərrahi stomatoloji iş üzrə lisenziya icazəsi olmayan şəxslər dişlərin çəkilməsi, ağız boşluğuna uyğun implantların yeridilməsi kimi əməliyyatları icra edə bilməz".

# Bəzi məşhur özəl klinikalar qorxu içində

## Saxta diplomlu və sertifikatlı həkimlərlə mübarizənin miqyası genişlənir - Sırada kimlər var?



günlərində Səhiyyə Nazirliyindən bildirilib ki, ölkə ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsasları ilə bağlı mediada ziddiyyətli məlumatlar yer alıb. Səsləndirilən iddialarla bağlı Səhiyyə Nazirliyi və Baş Prokurorluq birlikdə araşdırmalar aparıb və şübhəli məqamlar müəyyən edilib. Əldə olunan məlumatlara əsasən, bəzi hallarda sözügedən ixtisas daşıyıcısı qismində çıxış edən şəxslərin tibbi təhsil sənədləri və praktik tibb fəaliyyəti ilə məşğul olmağa hüquq verən şəhadətnamələri saxtalaşdırılıb.

Haqqında bəhs olunan Xüsusi Təftiş Komissiyasında Səhiyyə Nazirliyi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələri fəaliyyət göstərəcəklər.

O da bildirilir ki, Azərbaycan ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahlar peşə fəaliyyətinin qanunauyğunluğunu təsdiq edən sənədlərinin notariat qaydasında təsdiq edilmiş surətlərini (baza ali tibb təhsili, diplomdansonrakı təhsilə aid bütün sənədlər, əmək kitabçası, lə iddiaların da araşdırmaya ehtiyacı var və istisna deyil ki, yuxarıda haqqında danışdığımız Xüsusi Təftiş Komissiyasının fəaliyyət dairəsi gələcəkdə genişləndirilsin.

Digər tərəfdən, ölkədə plastik cərrahiyyədən sonra stomatoloji xidmət də müzakirə mövzusuna çevrilib. Yerli KİV-də və sosial şəbəkələrdə yazılanlara görə, ölkədə icbari tibbi sığortaya daxil edilməyən və geniş yayılan tibbi xidmət növündən biri də stomatoloji xidmətdir. Həm paytaxtda, həm də bölgələrdə addımbaşı stomatoloji xidmət göstərən məkanlara rast gəlinir. Burada çalışan ağ xalatlıların isə hansı tibb müəssisəsində təhsil aldığı, hansı ixtisasa yiyələndikləri, dişlə bağlı bütün prosedurları etmək ixtiyarında olduqları bəlli deyil.

Bəs stomatoloqlarla bağlı durum nə yerdədir? Onların diplomlarına, fəaliyyətlərinə nəzarət olunurmu?

Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən Bizim.Media-nın sorğusuna cavab olaraq bildirilib ki, cərrahi stomatoloji iş üzrə lisenziya icazəsi olmayan şəxslər dişlərin çəkilməsi, ağız boşluğuna uyğun im-

Qeyd edilib ki, şikayətlər əsasında xidməti yoxlamalar keçirilir: "Yalnız vətəndaş şikayətləri və yerli dövlət orqanları tərəfindən daxil olan müraciətlər əsasında aidiyyəti özəl tibb müəssisələrində qanunvericiliklə müəyyən olunmuş qaydada xidməti yoxlamalar keçirilir. Keçirilən yoxlamalar zamanı sahibkar subyektlərində aşkar edilən qanunsuz tibbi praktiki fəaliyyət ilə məşğul olma faktı inzibati xəta məcəlləsinin müvafiq maddələri ilə inzibati qaydada tənbeh olunur".

Qurum vətəndaşlara müraciət edərək problemlə qarşılaşdıqları halda onlara müraciət edilməsini istəyib: "Vətəndaşlara bir daha xatırladırıq ki, özəl tibb müəssisələrində və aptek təşkilatlarında üzləşdikləri hər hansı problemlə bağlı AEM-in "bir pəncərə" sistemi, "qaynar xətt"i (012 596 05 20), aem@pharma.az elektron ünvanı və ya pharma.az saytının MÜRACİƏT bölməsi vasitəsi ilə bizə müraciət edə bilər. Bu halda araşdırılma aparılır və lazım gələrsə, plandankənar yoxlama aparılması barədə qərar qəbul edilir".

Nazirlikdən verilən bu açıqlama "Unikal"a daxil olan məlumatın səhihliyini artırır. Belə görünür ki, biz xüsusilə özəl klinikalardakı tibbi xidmətlərin keyfiyyəti, ən əsası isə həmin müəssisələrdə çalışan saxta diplomlu və sertifikatlı həkimlər tezliklə ciddi araşdırma mövzusuna çevriləcək, saxta plastik cərrahlarla bağlı atılan sərt addımları digər sahələr üzrə fəaliyyət göstərən həkimlərlə, eləcə də onlara "yaşıl işıq" yandıran, qapısını açan özəl klinikalarla bağlı da müşayiət edəcəyik. Hesab edilir ki, peşəkarlığı şübhə altında olan "həkimlərin" varlığı səhiyyə sektorumuzda çalışan yüzlərlə professional mütəxəssisin əziyyətinə də kölgə salır...

***Toğrul Əliyev***

03_27 IYUl-QARA.qxd 1/23/2025 8:29 PM Page 4



# Sülh sazişinin dirəndiyi dalan: "Cəmi 2 bənd açıq qalıb, sonrası..."

***Ermənistanın baş naziri Nikol Paşinyan Dünya İqtisadi Forumu çərçivəsində təşkil olunan panel müzakirəsində çıxışı zamanı Azərbaycanla sülhün əldə olunması məsələsinə də toxunub.***

O bildirib ki, Ermənistan "Sülh yollarının kəsişməsi" layihəsi ilə bağlı təklifini irəli sürüb: "Bu təklif regional nəqliyyat kommunikasiyamızı daha səmərəli etməkdən, təkcə Azərbaycanla deyil, Türkiyə ilə də yeni nəqliyyat kommunikasiyaları yaratmaqdan, İran və Gürcüstanla əməkdaşlığımızı dərinləşdirməkdən ibarətdir. Layihə həm də Aiyə aiddir, çünki bu plan reallaşarsa, bizim Ermənistan vasitəsilə Avropa İttifaqı üçün yeni marşrutlarımız olacaq. Bu, təkcə iqtisadiyyatın problemi deyil, həm də çox vacib təhlükəsizlik amilidir. Amma təbii ki, biz Azərbaycanla sabit sülh yarada bilsək, bu layihə işləyəcək, təəssüf ki, indi belə deyil", - deyə Paşinyan qeyd edib.

Paşinyan İrəvanın balanslaşdırılmış xarici siyasət yürütdüyünü açıqlayıb: "Biz balanslaşdırılmış xarici siyasət yürütmək qərarına gəldik, bu o deməkdir ki, biz Avropa İttifaqı, Rusiya, regional güclərlə münasibətlərimizdə balans yaratmağa çalışacağıq. İranla əlaqələrimiz çox önəmlidir. Biz Türkiyə ilə diplomatik əlaqələr qurmağa çalışırıq, Azərbaycanla sülh əldə etməyə çalışırıq. Əlbəttə, asan deyil, amma digər tərəfdən, mümkünsüz olduğunu düşünmürəm. Qəribə səslənə bilər, lakin biz bütün beynəlxalq tərəfdaşlarımızla niyyətlərimiz barədə həqiqətən şəffafıq. Biz digər tərəfdaşlarımızla etdiklərimizi bütün tərəfdaşlarımızla paylaşırıq. Siz Avropa İttifaqına daha yaxın olmaq qərarımızdan danışdınız, lakin biz çox intensiv olaraq öz mövqeyimizi İranla bölüşməyə çalışırıq, fəal şəkildə mövqeyimizi Rusiya və bütün tərəfdaşlarımızla bölüşməyə çalışırıq".

"Biz Türkiyə ilə diplomatik əlaqələr qurmağı bacarmalıyıq" deyən baş nazir onu da qeyd edib ki, bu istiqamətdə işləyirlər. "Adətən insanlar soruşurlar ki, mən bu barədə optimistəm, yoxsa pessimistəm? Mən praqmatikəm, sadəcə başa düşürəm ki, problem həll olunana qədər işləməliyəm. Əsas və məncə, ən əsası, sülh gündəmindən kənara çıxmamaq, onu hədəfimizə yönəltmək və təslim olmadan, ümidsizliyə qapılmadan işləməyə davam etməliyik. Ümid edirəm ki, bu istiqamətdə beynəlxalq ictimaiyyət də dəstək verəcək", - deyə Paşinyan qeyd edib.



Mövzu ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, ilk növbədə sülh sazişi layihəsinin üzərində işləmək lazımdır. "Məndə olan məlumata görə, sülh sazişi ilə bağlı cəmi 2 bənd açıq qalıb. Onları təsdiqləmək lazımdır. Əsas məsələ isə Ermənistanın konstitusiyası ilə bağlıdır. Paşinyan gah deyirdi ki, bu məsələ ilə bağlı komissiya yaradılıb, 2027-ci ilədək yeni konstitusiya layihəsi hazırlayacaqlar. Bir neçə gün əvvəl isə 2026-cı ildə layihənin təqdim olunacağını və referendum keçiriləcəyini dedi. Ondan sonra sülh sazişinin imzalanması ilə bağlı real danışmaq olar. Yəqin ki, sülh sazişinin layihəsində nəqliyyat kommunikasiyaları ilə bağlı bənd var: Azərbaycan-Naxçıvan, Türkiyə-Ermənistan yollarının açılması və s. Yüklərin daşınması ilə bağlı isə hər hansı problem olacağını düşünmürəm. Bu barədə hökumətlər arasında danışıqlar olacaq. Gömrükçülər və sərhədçilər isə bu prosesə nəzarət edəcəklər. Digər tərəfdən, sərnişinlərin daşınması ilə bağlı məsələyə nəzər salsaq, burada təhlükəsizlik amili çox vacibdir. 10 noyabr bəyanatında nəqliyyat nəzarətinin Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilməsi nəzərdə tutulub. İndi isə ermənilər bunu istəmirlər. Bir sözlə, sərnişinlərin təhlükəsizliyi ilə bağlı məsələyə yenidən baxmaq lazım gələcək", - deyə E.Məmmədyarov qeyd edib.

Sabiq nazir sərhədlərin delimitasiya və demarkasiyası məsələsinə də münasibət bildirib: "Bu, çətin məsələdir. Delimitasiya və demarkasiya prosesi illərlə davam edir. Misal üçün, Gürcüstanla strateji əməkdaşlıq etməyimizə baxmayaraq, illərdir delimitasiya prosesini yekunlaşdıra bilmirik. Delimitasiya və demarkasiya işlərini aparan komissiya tərəfindən işlərin şimaldan başlanılması barədə qərar qəbul edildi. Mən vaxtilə təklif etmişdim ki, cənubdan başlayaq. Çünki gec-tez Zəngəzur dəhlizi açılacaq, oradan dəmir yolu və avtomobil yolu keçəcək. Delimitasiya işləri nə qədər tez yekunlaşsa, bu proses də o qədər sürətli davam edə bilərdi. Şimal hissədə isə problemlər var. Elə mənim vaxtımda da gürcülərlə görüşəndə onların da bu barədə sualları var idi. İnanmıram ki, delimitasiya və demarkasiya işləri tezliklə qutarsın".

***Murad İbrahimli***

# Cərimə vəsaitlərinin 50%-i onların maaşına əlavə kimi veriləcək



***"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişikliklər ediləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı qanun layihəsi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin yanvarın 23-də keçirilən iclasında müzakirəyə çıxarılıb.

Layihəyə əsasən, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna 49.5-ci maddə əlavə edilir.

Həmin maddəyə görə, bu Qanunun tələblərinin pozulmasına görə İnzibati Xətalar Məcəlləsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən hərbi qulluqçuların aylıq vəzifə (tarif) maaşlarına əlavənin verilməsi üçün həmin orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Sənədə əlavə edilən qeyd hissəsinə əsasən isə, bu Qanunun 49.5-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələr" dedikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən baxılan və həmin orqan (qurum) tərəfindən inzibati xəta haqqında iş üzrə qərar qəbul edilən və ya inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələr başa düşülür.

# Mərkəzi Bank üç kredit ittifaqına icrası məcburi göstəriş verib

***Azərbaycan Mərkəzi Bankı (AMB) "Stimul" Kredit İttifaqı MMC, "Finans Kredit İttifaqı" MMC və "Total Finans Kredit İttifaqı" MMC-yə icrası məcburi sərəncam verib.***

Bu barədə "Unikal" AMB-yə istinadən xəbər verir.

Məlumata görə, "Stimul" Kredit İttifaqı MMC , "Finans Kredit İttifaqı" MMC və "Total Finans Kredit İttifaqı" MMC tərəfindən 2024-cü ilin IV rübünə hesabatlar təqdim olunmadığından "Kredit ittifaqlarının prudensial tənzimlənməsi Qaydaları"nın 10.3-cü bəndinin tələbi təmin edilməmiş, bu səbəblə "Kredit İttifaqına bank əməliyyatının həyata keçirilməsi üçün lisenziya verilməsi Qaydası"nın 4.4.4-cü maddəsinin tələblərini rəhbər tutaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Stimul" Kredit İttifaqı MMC-yə bu hesabatların təxirəsalınmadan və növbəti dövrlərdə vaxtında təqdim edilməsi ilə bağlı icrası məcburi göstəriş verilib.

# Hərbi formanı qanunsuz daşıyanları 1000 manatadək cərimə gözləyir

***İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilir.***

"Unikal" xəbər verir ki, bununla bağlı qanun layihəsi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin, hərbi qulluqçuların və prokurorluq işçilərinin fərqlənmə nişanları olan hərbi və xüsusi geyim formalarını qanunsuz olaraq daşımağa görə, inzibati xətanın obyekti olmuş hərbi və xüsusi geyim forması müsadirə edilməklə 800 manatdan 1000 manatadək məbləğdə cərimə edilir.

Qeyd edək ki, qüvvədə olan Qanuna əsasən, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin, hərbi qulluqçuların və prokurorluq işçilərinin fərqlənmə nişanları olan hərbi və xüsusi geyim formalarını qanunsuz olaraq daşımağa görə inzibati xətanın obyekti olmuş hərbi və xüsusi geyim forması müsadirə edilməklə 300 manatdan 500 manatadək məbləğdə cərimə edilir.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən digər dəyişikliyə əsasən, həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxsin hərbi geyim formasını qanunla nəzərdə tutulmamış hallarda daşımasına görə - beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir.

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:50 PM Page 5



# İlham Əliyev Ərdoğana zəng etdi



***Yanvarın 23-də Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Qeyd edilib ki, dövlət başçısı Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı verib.

O, bu dəhşətli faciədə həlak olanlara Uca Allahdan rəhmət diləyib və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıb.

Prezident İlham Əliyev yanvarın 21-də facie ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə başsağlığı məktubu göndərdiyini də qeyd edib.

Türkiyə Prezidenti diqqətə və başsağlığına görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Türkiyə və Azərbaycan daim bir-birilərinin yanındadırlar, bundan sonra da həmişə belə olacaqdır.

Telefon danışığı əsnasında dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi apardılar.

# Onlara mülki odlu silah əldə etmək hüququ verilir

***Azərbaycanda iyirmi bir yaşına çatmış vətəndaşlara mülki odlu silah əldə etmək hüququ verilir.***



"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılmış "Xidməti və mülki silah haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, qanunun 2.1. 7-ci maddəsinin I hissəsinə "mülki silah" sözlərindən sonra "(odlu silah istisna olmaqla)" sözləri və "Azərbaycan Respublikasında iyirmi bir yaşına çatmış vətəndaşların mülki odlu silah əldə etmək hüququ vardır." məzmununda ikinci cümlə əlavə edilir.

***Anar Kəlbiyev***

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsinə dəyişiklik edildi

***"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, qoruq artıq idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə tələbatının ödənilməsini təmin etməlidir. Həmçinin, Qoruq tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqq daxil olmaqla, yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə müqavilə ilə müəyyən edilmiş məbləğdə haqq alacaq.

Eyni zamanda qoruq müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətləri göstərmək və bu xidmətlərə görə müqavilə ilə müəyyən edilmiş məbləğdə haqq almaq hüququna da malik olacaq.

Yuxarıda göstərilən müqavilələr üzrə haqların məbləğləri təsdiq ediləcək.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcivani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilir

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasında "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, qanun layihəsinə əsasən, sənədə "Orqanların (qurumların) fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi" adlı 8-1-ci maddə əlavə edilir.

Layihəyə görə, orqanın (qurumun) rəhbəri korrupsiya risklərinin idarə edilməsi məqsədilə səlahiyyətli struktur bölmə (şəxs) müəyyən edir. Korrupsiya risklərinin idarə edilməsi prosesinə xüsusi bilik tələb edən sahələr üzrə mütəxəssislər cəlb edilə bilər. Orqanda (qurumda) hər il yanvarın 15-dən aprelin 15-dək əvvəlki ili əhatə edən korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi aparılır. Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan müraciətlərin ümumiləşdirilməsinin nəticələrinə əsasən fəaliyyətindən daha çox şikayətlərin daxil olduğu struktur bölmədə və ya tabeliyində olan qurumda orqanın (qurumun) rəhbərinin qərarına əsasən digər müddətlərdə də risklərin müəyyən edilməsi, təhlili və



qiymətləndirilməsi keçirilə bilər.

Qanun layihəsinə əsasən, korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi həyata keçirilərkən aşağıdakı məlumatlar nəzərə alınır:

- hüquqi və fiziki şəxslər arasında keçirilən sorğuların nəticələri;
- korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan müraciətlər və həmin müraciətlər əsasında aparılan araşdırmaların nəticələri;
- mediada, həmçinin internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılan informasiya və korrupsiya risklərinin müəyyən edilməsi üçün mənbəyi məlum olan digər məlumatlar;
- orqanın (qurumun) fəaliyyətini tənzimləyən hüquqi aktlar;
- orqanın (qurumun) fəaliyyəti üçün xarakterik olan, mütəmadi olaraq baş verən korrupsiyaya şərait yaradan hallar;
- orqanın (qurumun) fəaliyyətinə dair inzibati məhkəmə icraatında baxılan inzibati mübahisələrin sayı, predmeti və bunlarla bağlı müvafiq qərarlar.

Sənəd layihəsinə görə, korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və bununla əlaqədar cari il üçün müəyyən edilən tədbirlər, həmçinin əvvəlki il üzrə müəyyən edilmiş tədbirlərə dair görülmüş işlər barədə məlumatlar hər il iyunun 1-dək Komissiyaya təqdim edilməlidir.

Korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və görülmüş işlər barədə məlumatlar dövri olaraq ictimaiyyətə açıqlanır. Komissiya bu Qanunun 8-1.4-cü maddəsinə uyğun olaraq ona təqdim edilən məlumatların təhlili əsasında müvafiq orqana (quruma) korrupsiya risklərinin idarə edilməsinə dair tövsiyələr, həmçinin korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilər.

# Müəllimlər üçün müsabiqə elan edildi

***Təhsil İnstitutu 2025-2026-cı tədris ili üzrə ümumi təhsil müəssisələrində metodist kimi fəaliyyət göstərəcək şəxslərin seçimi üçün "Müasir metodist" müsabiqəsi elan edib.***

"Unikal" xəbər verir ki, ölkənin müxtəlif regionlarından sertifikasiya imtahanından uğurla keçən fənn müəllimləri müsabiqədə iştirak etmək üçün müraciət edə bilərlər.

Metodist kimi fəaliyyət göstərmək istəyən namizədlər üçün aşağıdakı tələblər nəzərə alınır:

Pedaqoji təhsil;

Ən azı 7 illik pedaqoji təcrübə;

Sertifikasiya balı 51-dən yuxarı;

İKT bacarıqları;

Xarici dil üzrə bilik və bacarıqlar (arzu olunandır).

Qeydiyyatdan keçən və qeyd olunan tələblərə cavab verən namizədlər müsahibə mərhələsinə dəvət olunurlar. Müsahibə mərhələsindən müvəffəqiyyətlə keçən müəllimlər "Metodist hazırlığı" təlimlərinə cəlb edilirlər.



Təlimlərdə iştirak edən və uğur qazanmış namizədlər metodik xidmətə cəlb edilirlər.

Qeydiyyat üçün son müraciət tarixi 20 fevral 2025-ci ildir.

# İcma qərbi azərbaycanlıların qayıdış hüququnun təmin olunmasını tələb etdi

***Qərbi Azərbaycan İcması Ermənistanın irqçi siyasətini qınayaraq qərbi azərbaycanlıların qayıdış hüququnun təmin olunmasını tələb edib.***

İcmadan "Unikal"a daxil olan bəyanatda bildirilib ki, Ermənistan Xarici Kəşfiyyat Xidməti 2025-cü il yanvarın 23-də dərc etdiyi illik hesabatında Qərbi Azərbaycan mövzusunu hərbi-siyasi risk kateqoriyasında verib.

"Etnik təmizləməyə məruz qalmış qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə, təhlükəsiz şəraitdə və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq arzularını təhlükəsizlik riski kimi təqdim etmək bu haqq işini təhrif etməyə xidmət edir və Ermənistanın multietnikliyi özünə təhdid kimi gördüyünü sübut edir. Ermənistanın bu yanaşması onun onilliklərdən bəri yürütdüyü irqçi siyasətinin davam etdiyini göstərir", - bəyanatda vurğulanıb.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətinin irqçi siyasətini sərt şəkildə qınayır və ondan qərbi azərbaycanlıların qayıdış hüququnun təmin olunmasını tələb edib.

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 6



# Samir Şərifova yeni vəzifə verildi - Baş nazirdən qərar



***Baş nazirin müavini Samir Şərifova yeni vəzifə verilib.***

"Unikal"ın məlumatına görə, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Samir Şərifov Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının sədri təyin edilib.

O, bu vəzifədə ötən il deputat seçilən Əli Əhmədovu əvəzləyib.

Xatırladaq ki, Samir Şərifov bir neçə gün öncə - yanvarın 10-da maliyyə naziri vəzifəsindən azad edilərək, Baş nazirin müavini postuna təyin olunub.

Baş nazirin keçmiş müavini Əli Əhmədov Milli Məclisə deputat seçildiyindən Nazirlər Kabinetində vakant vəzifə yaranmışdı. Həmin vakant yer Samir Şərifovun təyinatı ilə doldurulub.

Samir Şərifov Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra nazir postuna yüksəlmişdi - 2006-cı ildə Azərbaycan Respublikasının maliyyə naziri təyin olunmuşdu. O, 19 il maliyyə naziri vəzifəsində çalışdı.

# Qərbi azərbaycanlılarla bağlı yeni layihələrə start verilib




***Diasporla İş üzrə Dövlət Komitəsi xarici ölkələrdə yaşayan Qərbi azərbaycanlılarla bağlı yeni layihələrə start verib.***

"Unikal" xəbər verir ki, ilk növbədə xarici ölkələrdə yaşayan Qərbi azərbaycanlıların elektron bazası yaradılıb və bu sahədə iş sistemli şəkildə davam edir. Bazada Qərbi azərbaycanlıların hansı ölkələrdə yaşamaları, nə vaxt həmin ölkələrə köçmələri və çalışdıqları sahələrlə bağlı müfəssəl məlumat toplanır.

Komitə xaricdə yaşayan Qərbi azərbaycanlıların həyatı, yaşayışı ilə bağlı xüsusi verilişlərin hazırlanmasına da start verib. Həmin verilişlər Vəsilə Vahidqızının müəllifi olduğu "Vətən uzaqda deyil" proqramının xüsusi buraxılışları kimi hazırlanır və komitənin "youtube" kanalı olan Diaspor TV-də və İctimai TV-də yayımlanır. Bu günə kimi verilişlərin çəkilişləri ABŞ, Qazaxıstan, Türkiyə və bir neçə başqa ölkədə aparılıb.

Bu il xaricdə yaşayan Qərbi azərbaycanlılarla silsilə müsahibələrin hazırlanması və komitənin internet radiosu olan Diaspor FM-də də yayımlanması nəzərdə tutulur.

Xatırladaq ki, komitə 2025-ci ildə Şərqi Anadoluda yaşayan azərbaycanlı gənclərin forumunun təşkilini planlaşdırır və bu forum Qərbi azərbaycanlılarla bağlı iri layihələrdən biridir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına uyğun olaraq Şərqi Anadoluda yaşayan soydaşlarımıza diqqətin artırılması məqsədi daşıyan forumun İğdır və Qars şəhərlərindən birində təşkil olunması planlaşdırılır.

# "Ali təhsil haqqında" qanun bu il də qəbul ediləcək?

***Milli Məclisin Elm və təhsil komitəsinin yaz sessiyası üçün İş planı məlum olub.***

"Unikal"ın məlumatına görə, işlər planında komitə üzvlərinin sessiya müddətində görəcəyi fəaliyyətlər qeyd olunub.

Ancaq planda çoxdan gözlənilən "Ali təhsil haqqında" qanunla bağlı hər hansı fəaliyyət nəzərdə tutulmayıb.

Qeyd edək ki, qanun layihəsi ilə bağlı ilk müzakirələr 2021-ci ildə başlayıb, ancaq hələlik qəbul edilməyib.

Komitənin iclasında deputat Ceyhun Məmmədov da qanun layihəsinə toxunub. Onun sözlərinə görə, təhsillə bağlı qarşıda yeni vəzifələr durur. "Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də dünyada yeni tendensiyalar baş verir. Önəmli



məsələlərdən biri də "Ali təhsil haqqında" Azərbaycan Respublikası Qanunun qəbuludur. Təhsil ictimaiyyəti qanunun qəbulunu səbirsizliklə gözləyir. Qanunda bir çox mühüm məsələlər var. Onlardan biri də doktorantura səviyyəsində mərhələlərin 1-ə endirilməsidir. İnanıram ki, tezliklə qanun qəbul ediləcək və bu təhsilimizin inkişafına öz töhfəsini verəcək. Sonda birgə dinləmənin keçirilməsini təklif edirəm. Düşünürəm fikir mübadiləsi üçün bu çox önəmli məsələdir".

Təkliflə parlamentin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev Elm və təhsil komitəsinin iclasında çıxış edib. O xatırladıb ki, "Ali təhsil haqqında" qanun layihəsi hazırlansada, qəbul olunmayıb: "Ali təhsil haqqında" qanun layihəsi bəlkə də Milli Məclisin tarixində ilk sənəddir ki, onunla bağlı müzakirədə spiker şəxsən iştirak etdi və İşçi qrupunun yaradılması haqqında göstəriş verdi. Yenidən işçi qrupu yaradılmalıdır. Düşünürəm ki, "Təhsil haqqında" qanunun ali təhsillə bağlı fəsilləri də təkmilləşdirməlidir".

# Tahir Budaqov müşavirə keçirdi - Seçkiylə bağlı tapşırıqlar verdi



***Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında seçkilərin keçiriləcəyi bütün seçki dairələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə müşavirə keçirilib.***

"Unikal" xəbər verir ki, müşavirədə seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat verilib, qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının zəruriliyi vurğulanaraq tövsiyə və tapşırıqlar diqqətə çatdırılıb, Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış müvafiq yaddaş kitabçaları onlara təqdim edilərək bələdiyyə seçkilərinin azad, şəffaf, ədalətli və demokratik keçirilməsi üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə əminlik ifadə olunub.

# Hikmət Mirzəyevə yeni müavin təyin edildi

***Azərbaycan Ordusunun Quru Qoşunları Komandanı, general-polkovnik Hikmət Mirzəyevə yeni müavin təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd olunub. Sözügedən vəzifəyə general-mayor İlqar Lətifov təyin olunub.

Qeyd edək ki, İ.Lətifov 4-cü ordu korpusunun komandanı olub.

# Bu sahədə cərimələr ikiqat artırılır



***İnzibati Xətalar Məcəlləsinə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna dəyişikliklər ediləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı qanun layihəsi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən, ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların siyahılarının çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunu aparan orqan və təşkilatlar tərəfindən müvafiq icra hakimiyyəti orqanına müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə, vəzifəli şəxslər 400 dörd manatdan 600 manatadək məbləğdə, hüquqi şəxslər 1000 manatdan 1200 manatadək məbləğdə cərimə edilir.

Qeyd edək ki, qüvvədə olan Qanuna əsasən, İlkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların siyahılarının çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunu aparan orqan və təşkilatlar tərəfindən müvafiq icra hakimiyyəti orqanına müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə vəzifəli şəxslər 200 manatdan 300 manatadək məbləğdə, hüquqi şəxslər 400 manatdan 600 manatadək məbləğdə cərimə edilir.

***Anar Kəlbiyev***

# Azərbaycan-Pakistan hərbi əməkdaşlığı müzakirə olunub, təlimat imzalanıb

***Yanvarın 23-də Azərbaycan Ordusu Quru Qoşunların komandanının müavini general-mayor İlqar Lətifov ölkəmizdə rəsmi səfərdə olan Pakistan Silahlı Qüvvələrinin Hərbi Əməliyyatlar üzrə Baş Direktoru general-mayor Abdulla Kəşifin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan MN məlumat yayıb.

Görüşdə Azərbaycan-Pakistan arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin hərbi qulluqçuların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə təcrübə mübadiləsinin aparılması üçün keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi vurğulanıb.

Sonda "Azərbaycan Ordusunun Quru Qoşunları ilə Pakistan Ordusunun Quru Qoşunları arasında Qərargah danışıqlarının keçirilməsinə dair Təlimat" imzalanıb.

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 7





## Ceyhun Bayramov ölkəmizdə diplomatik fəaliyyəti başa çatan Bağcını qəbul etdi

*Xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcını Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.*

XİN-dən “Unikal”a verilən məlumata görə, görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyinin müxtəlif aspektləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

C.Bayramov Boluda baş verən faciəvi yanğınla bağlı qardaş Türkiyə Respublikasına bir daha başsağlığı verib, dəhşətli hadisə nəticəsində vəfat edənlərə Allahdan rəhmət, yaralılara şəfa arzulayıb, Azərbaycanın hər zaman Türkiyə dövləti və xalqının yanında olduğunu vurğulayıb.

“Nazir ölkəmizdə səmərəli diplomatik fəaliyyətinə, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyinə verdiyi töhfələrə görə səfir Cahit Bağcıya təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzu edib. Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan-Türkiyə müttəfiqliyinin tarixi dönəmlərində səfir kimi fəaliyyətinin yaddaqalan olduğu xüsusilə qeyd olunub.

Azərbaycan-Türkiyə müttəfiqliyinin siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, humanitar və s. istiqamətlər üzrə uğurlu inkişafının məmnunluq doğurduğu vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, habelə bir sıra çoxtərəfli formatlar çərçivəsində davamlı dəstək və həmrəyliyimizin əhəmiyyəti qeyd olunub.

Ölkələrimizin geniş anlamda regional və beynəlxalq təhlükəsizliyə töhfə verən birgə fəaliyyətlərin bundan sonra da davam etdiriləcəyinə dair inam ifadə olunub, bu istiqamətdə, Azərbaycanın xüsusilə Yaxın Şərq və Suriyada sabitliyə və humanitar məsələlərin həllinə qardaş Türkiyə ilə birgə dəstək verməyə davam edəcəyi qeyd olunub. Ölkəmizin Afrika qitəsində Türkiyə ilə birgə əməkdaşlığı üçün geniş perspektivlərin olduğu bildirilib.

Səfir Cahit Bağcı Türkiyənin qardaş Azərbaycanda səfiri kimi fəaliyyətini hər zaman qürurla xatırlayacağını diqqətə çatdıraraq, göstərilən dəstəyə görə təşəkkür edib, bundan sonra da Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqliyinə əlindən gələn töhfənin verilməsinə hazır olduğunu bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb”, - deyə məlumatda qeyd olunub.

# “Azərbaycanda geniş islahatlar aparılıb”

## Azər Badamov: “Dövlət başçısı tərəfindən bu məsələnin həll olunması aktual hesab olunarsa, təbii ki, referendum vasitəsilə dəyişiklik oluna bilər”

***Milli Məclisin deputatı Azər Badamov “Unikal”a müsahibə verib. O, Trampın hakimiyyəti dövründə ABŞ-Azərbaycan münasibətlərinin necə ola biləcəyindən, struktur islahatlarının davamından, referendumun keçirilməsinin mümkünlüyündən və xüsusi nümayəndəliyin digər rayonlarda da tətbiq olunub-olunmayacağından danışıb.***

***-Azər müəllim, Prezidenti İlham Əliyev Davosda ABŞ-nin Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşdə qeyd edib ki, Bayden-Blinken administrasiyası dövründə ABŞ tərəfindən Azərbaycana qarşı qərəzli münasibət göstərilib. Dövlət başçısı söyləyib ki, bunun da nəticəsində ikitərəfli əlaqələr böhrana sürüklənib.Prezident İlham Əliyev 907-ci düzəlişin yenidən bərpasını məhz elə Bayden-Blinken administrasiyasının nankorluğunun təzahürü kimi dəyərləndirib. Sizcə, Trampın hakimiyyəti dövründən ABŞ-Azərbaycan münasibətləri necə olacaq?***

-Bayden administrasiyası erməni lobbisinin təsiri altında idi. Ona görə də Azərbaycanla münasibətləri Ermənistan üzərindən qurmağa çalışırdı. Bayden hakimiyyəti öz dövründə Azərbaycana qarşı ikili standartlı bir münasibət sərgilədi, qərəz nümayiş etdirdi və regionda sülhün yaranmasına qarşı siyasət apardı. ABŞ Azərbaycan lazım olanda müəyyən məhdudiyyətləri aradan götürdü. Amma lazım olmayanda, yenidən məhdudiyyətləri qüvvəyə mindirdi. Məsələn, Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyanın həyata keçirilməsinə lazım olanda 907-ci düzəlişin fəaliyyətini dayandırdı. Amma missiya bitəndən sonra həmin 907-ci düzəlişi qüvvəyə mindirdi. Təbii ki, bu da nankorluqdur. Bayden hakimiyyəti dövründə qərəzin digər nümunəsi də Ukraynaya yardımlarda da özünü göstərdi. Ukraynanın ərazi bütövlüyü pozulduğuna görə ABŞ Ukraynaya hərbi və maliyyə yardımları göstərdi, ərazi bütövlüyünün təmin olunması üçün dəstək verdiyini ifadə etdi. Amma Azərbaycan öz ərazilərində suverenliyi bərpa etdiyinə görə ittiham olunur. Bu da gülməli vəziyyətdir. Siz ədaləti dəstəkləyirsizsə, ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşırsızsa, niyə Ukraynaya gələndə ərazi bütövlüyünü dəstəkləyirsiz, amma Azərbaycanı öz ərazi bütövlüyünü, suverenliyini təmin etdiyi halda cəzalandırmağa çalışırsız. Digər məsələ isə odur ki, ABŞ, Avropa İttifaqı və Ermənistanın üçtərəfli sənədinin imzalanmasıdır. Bu, Azərbaycana qarşı yönəlmiş bir sənəddir. Bu sənəddə Ermənistana hərbi dəstəyin göstərilməsi məsələsi razılaşdırılmışdı. ABŞ Ermənistana hərbi yardımlar göstərməyə başladı. Hətta Bayden hakimiyyətinin son günlərində, onun son vida çıxışından sonra Antoni Blinken Azərbaycana olan qərəzini bir daha nümayiş etdirərək Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanı ABŞ-a dəvət etdi və onunla təhlükəsizliklə bağlı saziş imzaladı. Bütün bunlar onu deməyə əsas verir ki, Bayden hakimiyyəti dövründə ABŞ siyasəti Azərbaycana qərəz, qarayaxma və ikili standartlar üzərində qurulmuşdu. Artıq yeni bir dövr başladı. Bu isə Donald Trampın hakimiyyəti dövrüdür. Bu dövrdə ABŞ-ın Azərbaycana fərqli yanaşmasının olacağını gözləyirəm. Ona görə ki, Trampın birinci hakimiyyəti dövründə ABŞ-la Azərbaycan arasında münasibətlər yüksək səviyyədə inkişaf edirdi. ABŞ Azərbaycanın enerji layihələrinə, beynəlxalq infrastruktur layihələrinə dəstək vermişdi. Yeni dövrdə də ABŞ-Azərbaycan münasibətləri əvvəlki dönəmdə olduğu kimi yenidən müsbət məcraya qayıdacaq. Belə bir təşəbbüslər meydana gələrsə, iki ölkə arasındakı münasibətlər, əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə qalxa bilər.



***-Bu il ölkəmizdə “Konstitusiya və Suverenlik ili”dir. Bu baxımdan yeni referendumun keçiriləcəyi ilə bağlı fikirlər səsləndirilir. Bu il referendum keçirilə bilərmi və hansı dəyişikliklər ola bilər?***

-“Konstitusiya və Suverenlik ili”nin elan olunması əlamətdar hadisədir. Bu ilin konstitusiya və suverenliyə həsr olunması təbii ki, konstitusiyamızın qəbul olunmasının 30 illiyinin tamam olmasına əsaslanıb. O cümlədən, ərazilərimizdə suverenliyin təmin olunmasının 5 ili tamam olur. Belə ki, 2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan öz ərazilərində suverenliyi bərpa edib. Bu iki əlamətdar hadisənin yubiley tarixləri olduğuna görə, 2025-ci il həm konstitusiya, həm də suverenlik ilinə həsr olunub. Amma mətbuatda, ictimaiyyət arasında referendumla bağlı fikirlər səslənir. Konstitusiya ili olsa da, olmasa da referendum keçirilə bilər. Bunun elan olunmuş illə bağlılığının olduğunu hesab etmirəm. Əgər referendumun keçirilməsi dövlətimiz və dövlət başçımız üçün məqsədəuyğun hesab olunarsa, konstitusiya ili olmasa da, başqa ildə də keçirilə bilər. Və yaxud bu il də keçirilə bilər. “Konstitusiya və Suverenlik ili”nin elan olunması ölkədə referendumun keçirilməsi üçün əsas yaratmır.

***-Məlum olduğu kimi, ölkəmizdə icra hakimiyyətləri sistemi ilə paralel xüsusi nümayəndəlik institutu formalaşıb. Bu, artıq tək azad edilmiş ərazilərdə deyil, həm də Naxçıvanda tətbiq olunur. Bunun ölkəmizin bütün ərazisində tətbiq olunması gözlənilirmi və bu hansı yeniliklərə səbəb ola bilər?***

-Cənab Prezidentin hakimiyyətinin son illərinə diqqətlə baxsaq görərik ki, Azərbaycanda geniş islahatlar aparılıb. Bu, struktur, iqtisadi, sosial islahatlardır. Yəni, bu gün əldə olunan uğurların kökündə ölkə başçımızın uğurlu siyasətinin dayanmasıdır. Azərbaycan müasirləşir, təkmilləşir. Vətəndaşlarımızın daha yaxşı yaşaması üçün şərait yaradılır. Xüsusi nümayəndəlik institutunun yaradılması ilə bağlı qanun qəbul olunmuşdu. Amma yerli icra hakimiyyətlərinin ləğv olunması məsələsi üçün konstitusiyada dəyişikliklər edilməsi vacibdir. Bu dəyişikliyin edilməsi bu gün nə qədər vacibdir, nə qədər aktualdır məsələsi başqa mövzudur. Dövlət başçısı tərəfindən bu məsələnin həll olunması aktual hesab olunarsa, təbii ki, referendum vasitəsilə dəyişiklik oluna bilər.

***-Hər ilin başlanğıcında yeni struktur islahatlarının olacağı gözlənilir. Məlum olduğu kimi, maliyyə naziri Samir Şərifov vəzifəsindən azad olunaraq Baş nazirin müavini təyin edilib. Bu dəyişikliklər davam edəcəkmi və bu il hansı islahatların olması gözlənilir? O cümlədən, Maliyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Vergi Xidmətinin birləşdirilməsi mümkündürmü?***

-İslahatların aparılması kampaniya xarakteri daşımır. Bu canlı orqanizmdir və mütəmadi olaraq islahatlar aparılaraq struktur daha da təkmilləşdirilir. Maliyyə nazirinin başqa vəzifəyə keçirilməsini islahatların aparılması kimi qeyd edə bilmərəm. Bu, bir vəzifə sahibinin başqa yüksək vəzifəyə keçirilməsi, onun verdiyi töhfələrlə bağlıdır. Hesab edirəm ki, Maliyyə naziri vəzifəsinə bacarıqlı mütəxəssis təyin olunacaq. Amma bir neçə strukturun birləşdirilməsi məsələsi və cəmiyyətdə müzakirə olunanlardan biri də Gəlirlər Nazirliyinin yaradılmasıdır. Burada fikirlər Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi və Maliyyə Nazirliyinin birləşdirilməsi ilə bağlıdır. Bir çox dövlətlərin təcrübəsində belə strukturlar mövcuddur. Hesab edirəm ki, Maliyyə Nazirliyi həmişə ayrı olmalıdır. Gəlirlər və xərclər bir-birindən ayrılanda şəffaflıq daha yüksək səviyyədə təmin olunur. Maliyyə Nazirliyi xəzinədir, ora gəlirlər gəlməlidir və gələn gəlirlərə xəzinə nəzarət edərsə, burada şəffaflıq məsələsi pozulmuş olar. Maliyyə Nazirliyinin ayrıca qurum olaraq fəaliyyətini davam etdirməli olduğunu hesab edirəm. Xəzinəyə gələn gəlirlər də, maliyyənin təyinatı da şəffaf olmalıdır. Bu baxımdan, Maliyyə Nazirliyinin fəaliyyətinin davam etdirilməsinin lazım olduğunu düşünürəm.

***Anar Kəlbiyev***

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 8



# Elman Rüstəmova müavinlik şoku

## Sabiq baş bankirin yeni yüksək vəzifə ümidi niyə boşa çıxdı?



***Məlum olduğu kimi, ölkə başçısının bu il yanvarın 10-da imzaladığı Sərəncamla Maliyyə naziri Samir Şərifov tutduğu vəzifəsindən azad edilərək Baş nazirin müavini təyin olunub. Beləliklə, o 18 illik nazir karyerasını başa vurub.***

Qeyd edək ki, Samir Şərifov Baş nazir Əli Əsədovun 3-cü müavini olub. Hazırda Nazirlər Kabineti sədrinin birinci müavin Yaqub Eyyubov, digər müavin isə Şahin Mustafayevdir.

Ötən il sentyabrın 23-də parlament seçkilərinə qatıldığına görə Əli Əhmədov Baş nazirin müavini vəzifəsindən azad edilmişdi. Belə ehtimal edilir ki, Şərifov məhz Əhmədovun səlahiyyətində olmuş sahələr üzrə məsul müavin olacaq.

Samir müəllim yeni təyinatı ilə bağlı açıqlama verərkən "Cənab Prezident mənə böyük etimad göstərib. Çalışacağam ki, bu etimadı doğruldum. Hələ ki, müavin olaraq hansı sahəyə rəhbərlik edəcəyimi deyə bilmərəm. O məsələlərə Baş nazir baxacaq, cənab Prezidentlə razılaşdırılacaq. İnşallah, növbəti həftə bəlli olacaq" deyib.

Baş nazirin müavinlərdən başqa daha 2 müşaviri var. Bunlar Meliorasiya və Su Təsərrüfatı ASC-nin keçmiş sədri Əhməd Əhmədzadə və Mərkəzi Bankın İdarə Heyətinin keçmiş sədri Elman Rüstəmovdur.

"Unikal"ın əldə etdiyi məlumata görə, Rüstəmov bir müddətdir müavin postuna özünün təyinat alacağını gözləyirmiş. Lakin onun ümidləri boşa çıxıb və Şərifov belə bir təyinat alıb. O da maraqlıdır ki, ötən illərdə keçmiş maliyyə naziri ilə sabiq baş bankir arasında soyuqluq olduğu barədə mətbuatda müxtəlif iddialar yer alıb. Lakin tərəflərin heç biri həmin iddialara münasibət bildirməyiblər, yəni deyilənləri nə təsdiq, nə də təkzib ediblər.

Mövzu ilə bağlı o da bildirilir ki, əslində Elman müəllimin Baş nazirin müşavirliyindən müavinliyə gətirilməsi real ola bilərdi, lakin onun adı son zamanlar bir çox qalmaqallarda hallanıb. "Bu sırada 5 milyon manatlıq kredit skandalını xüsusi qeyd etmək lazımdır. Belə ki, onun Azər Nağıyev adlı şəriki mətbuata açıqlamalarında 1999-cu ildən etibarən Bakı şəhərində "Super İnşaat" MTK-nı təsis edərək tikinti fəaliyyəti ilə məşğul olduğunu, 2004-cü ildə həmin vaxt Mərkəzi Bankın sədri olan Elman Rüstəmov tərəfindən ona ortaqlıq təklif edildiyini açıqlayıb. Sonra da deyib ki, Rüstəmov bu məqsədlə müxtəlif vaxtlarda şərikinə 3 milyon 900 min ABŞ dolları kredit ayırmaq təklif edib. Təklif qəbul olunub, onlar birgə işləməyə başlayıblar, birlikdə Bakı şəhəri, Hüseyn Cavid prospektində 3 yaşayış binası tikiblər. Elman Rüstəmovla razılaşdırılan qaydada kreditlər hissə-hissə ödənilib. Bütün xərclər çıxıldıqdan sonra şəriklərə 3 milyon 200 min ABŞ dolları gəlir qalıb. Həmin məbləğ bərabər bölünüb. Bundan əlavə, Elman Rüstəmov öz ortağından 3 milyon 100 min ABŞ dolları məbləğini və şərikinin digər şirkəti olan "Aqana Servis" MMC-nin adına inşa edilmiş yaşayış binasından 2 milyon manatlıq mənzil sahəsi alıb. Üstəlik, Rüstəmov ortağından aldığı pulları qaytarmaq məqsədilə 2013-cü ildə ona Mərkəzi Bankın hesabından 5 milyon manat kredit ayırıb. Həmin kreditlərin 1 milyon 500 min manat hissəsini xalası oğlu Rəşadın başqa banka olan borcunu ödəyib. Yerdə qalan məbləğin 3 milyon 500 min manat hissəsini şərikinə girov müqabilində versə də, həmin məbləğ də onun göstərişi ilə hissə-hissə müxtəlif şəxslərə və dediyi yerlərə verilib. Bu yaxınlarda isə sözügedən kreditlə bağlı bizə qarşı Yasamal Rayon Məhkəməsində iddia qaldırıldığı aydınlaşıb. Şəriki Elman Rüstəmovdan dəfələrlə həmin kreditlərin bağlanmasını, mülkiyyət hüququ əsasında həyat yoldaşına məxsus qeyri-yaşayış sahələrinin girovdan azad edlməsini xahiş etsəm də, bu bir nəticə verməyib. Sabiq baş bankirin şəriki hesab edir ki, Rüstəmov onun etibarından suistifadə etməklə, ortağının adına yazdırdığı kreditləri öz məqsədləri, habelə xalası oğlunun kreditlərini bağlamaq üçün istifadə edib. Azər Nağıyev məsələ ilə bağlı bir neçə dəfə Rüstəmovla şəxsən görüşmək istəsə də, sabiq baş bankirin hər dəfə müxtəlif bəhanələrlə görüşdən imtina etdiyini vurğulayıb. Elman müəllimin həm Mərkəzi Banka rəhbərlik etdiyi dövrdə yol verdiyi müəyyən xətaları, həm də onun adının son vaxtlar hallandığı bu cür qalmaqalları nəzərə alsaq, Baş nazir müavini təyin edilməməsinin səbəbini daha yaxşı anlamaq mümkündür. Təsadüfi deyil ki, o, 27 ildir tutduğu AMB-nin İdarə Heyətinin sədri vəzifəsini 2022-ci ilin aprelində vəzifə səlahiyyətlərinin müddəti başa çatmadan tərk etməli olmuşdu".

Bunun əvəzində Azərbaycanın ən uzunmüddətli maliyyə naziri işləmiş Şərifovun Baş nazirin müavinliyinə gətirilməsi təəccüb doğurmur. Əvvəla, 2006-cı ildə maliyyə naziri təyin olunandan sonra o, beynəlxalq müstəvidə daha çox tanınmağa başlayıb və ötən 19 il ərzində beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıqda bir peşəkar kimi Azərbaycanın əsas siması olaraq tanınıb. Onun nazir kimi çoxillik fəaliyyəti mətbuatın və ekspertlərin də diqqət mərkəzində olub. Məsələn, S.Şərifovla bağlı son təyinatdan sonra "Turan" agentliyi də yazıb ki, "Şərifov Azərbaycan siyasətindəki qərbyönlü fiqur olaraq ölkənin iqtisadi modernizasiyasını və qlobal maliyyə inteqrasiyasını həyata keçirən şəxs kimi tanınır.

Digər tərəfdən, ölkə başçısı bu yaxınlarda yerli televiziya kanallarına müsahibəsində büdcə gəlirlərindən, ölkənin maliyyə sektorundakı durumdan razılığını bildirərək, ümumi mənzərəni müsbət dəyərləndirmişdi. Bu isə yerli mediada sabiq maliyyə nazirinin fəaliyyətindən razılığın göstəricisi kimi qiymətləndirilmişdi.

*Toğrul Əliyev*

# "Bələdiyyə seçkilərinə maraq böyükdür" - Məzahir Pənahov



***"Bələdiyyə seçkilərinə maraq böyükdür".***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, 26 siyasi partiyadan 23-ü seçkilərdə iştirak edir.

"70 minə yaxın müşahidəçi qeydə alınıb. Onların yarısı siyasi partiyaların müşahidəçiləridir",- deyə o qeyd edib.

# Bələdiyyə seçkiləri ilə bağlı veb-kameralara baxış keçirilib



***Bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib.***

"Unikal" xəbər verir ki, bələdiyyə seçkilərində veb-kameraların tətbiqini birgə layihə çərçivəsində və sıx əməkdaşlıq şəraitində gerçəkləşdirən qurumların rəhbərlərinə veb-kameraların quraşdırılması, tənzimlənməsi və seçki gününə tam hazır vəziyyətə gətirilməsi ilə bağlı atılan yekun addımlar barədə məlumat verilib.

Mütəxəssislərlə söhbət zamanı veb-kameraların seçkilərin şəffaflığının təmin olunmasındakı mühüm rolu bir daha vurğulanaraq, veb-kameraların quraşdırılması və tənzimlənməsi prosesində qanunvericiliyin tələblərinə dəqiqliklə əməl edilməsinin vacibliyi diqqətə çatdırılıb və zəruri tövsiyələr verilib.

Daha sonra jurnalistlər üçün keçirilən brifinqdə bildirilib ki, Azərbaycanda keçirilən seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən geniş və səmərəli istifadə edilməklə, səsvermə günü də aşkarlığın və şəffaflığın böyük miqyasda təminatına nail olunub.

Diqqətə çatdırılıb ki, Mərkəzi Seçki Komissiyası veb-kameraların səsvermə günü aşkarlığın və şəffaflığın təmin olunmasındakı müstəsna rolunu nəzərə alaraq, qarşıdan gələn bələdiyyə seçkilərində də 118 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib və həmin məntəqələrin siyahısı rəsmi dərc olunub.

Seçki günü internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, müasir standartlara cavab verən və ən yüksək görüntü effektinə malik bu veb-kameralar vasitəsilə seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini canlı və fasiləsiz müşahidə edə bilərlər.

Brifinqdə həmçinin bələdiyyə seçkiləri ilə bağlı tamamilə yekunlaşmaqda olan hazırlıq işlərinin gedişatı barədə məlumat verilib və media mənsublarının suallan cavablandırılıb.

# İlham Alışanov vəfat etdi



***Azərbaycan Televiziyasının (AzTV) keçmiş Baş proqram direktoru İlham Alışanov vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat yayılıb.

Qeyd edək ki, o, 2021-ci ildə tutduğu vəzifədən azad edilərək televiziyada bədii komissiyanın rəhbəri təyin olunmuşdu.

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 9



# YAP Veteranlar Şurasının iclası keçirilib



***Yanvarın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, iclasın gündəliyinə YAP Veteranlar Şurasının 2024-cü ildə fəaliyyətinin yekunları və 2025-ci il üçün Tədbirlər Planının müzakirəsi daxildir.

A.Rəhimzadə qeyd edib ki, ötən ilin ən mühüm hadisəsi fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkiləridir. O, Prezident İlham Əliyevin Zəfər seçkisində möhtəşəm qələbəsinin xalqın iradəsinin ifadəsi olduğunu diqqətə çatdırıb. YAP Veteranlar Şurasının sədri qeyd edib ki, bütün dünya bir daha ölkəmizdə xalq-Lider birliyinin sarsılmazlığına şahid oldu.

A.Rəhimzadə vurğulayıb ki, YAP Veteranlar Şurası 2024-cü il ərzində öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsi çərçivəsində müvafiq Tədbirlər Planına uyğun həyata keçirib: "Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təşviqi və Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasətinin geniş təbliği, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, tarixi və əlamətdar günlərin qeyd olunması istiqamətlərində mühüm tədbirlər keçirilib, gənclərlə silsilə görüşlər təşkil olunub. YAP Veteranlar Şurasının üzvləri paytaxt Bakıda və regionlarda keçirilən tədbirlərdə fəal iştirak ediblər".

2025-ci ilin Tədbirlər Planına gəlincə, YAP Veteranlar Şurasının sədri il ərzində müxtəlif toplantıların, o cümlədən 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar bu istiqamətdə tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu və ideoloji məsələlərin daim diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova, Şuranın üzvləri Dilarə Seyidzadə, Zərifə Quliyeva, Adilə Abasova, Əli Həsənov, Tahir Quliyev, Şahlar Əsgərov, Vahid Novruzov, Urxan Ələkbərov, Xeyrəddin Qoca və Zahid Xəlilov çıxış ediblər. YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunları qənaətbəxş qiymətləndirilib, 2025-ci ilin Tədbirlər Planı ilə bağlı fikir və təkliflər səsləndirilib, müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

# "Onların diplomları ölkəmizdə tanınmır" - Deputat



***"Xaricdə olan bir çox peşələrin diplomları ölkəmizdə tanınmır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Elm və təhsil komitəsinin bu gün keçirilən iclasında deputat Rəşad Mahmudov deyib. O bildirib ki, bu gün ölkədən xaricdə - ABŞ-də, Avropada, Türkiyədə Perfiziyoloqiya ixtisası üzrə oxumuş insanlar var: "Onların diplomları ölkəmizdə tanınmır. Bəzən belə xüsusi sahələrə xüsusi yanaşmalar tətbiq olunmalıdır. Bir çox sahələrdə elə ixtisaslar var ki, bizim ölkəmizdə bu ixtisaslar tanınmır. Sürətli dəyişən dünyamızda xaricdə alınan diplomların tanınmaması problemi, təhsil, əmək bazarı və iqtisadiyyatın inkişafını əngəlləyən ciddi faktordur".

***Anar Kəlbiyev***

# Nazir sədr müavinini işdən çıxardı

***"Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədr müavini vəzifəsindən azad edilib.***

"Unikal" qaynarinfo-ya istinadən xəbər verir ki, İlyas İnqilab oğlu Həsənov öz istəyi ilə işdən çıxarılıb. Bu barədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov müvafiq əmr imzalayıb.

Əldə etdiyimiz məlumata görə, İlyas Həsənov Məcnun Məmmədovun yaxın dostu, hazırda "Aqroservis" ASC-nin sədri vəzifəsində çalışan Mehman Veysəlovla birgə çalışmaq istəməyib. O, bundan sonra işini məhkəmə-hüquq sistemində davam etdirəcəyi deyilir.

# Deputatın apteklər şəbəkəsinin başı yenidən qalmaqalda

## Məşhur şirkətin cərimələnməsi adi hal alıb - Bir ayda üç ittiham!



***Azərbaycanda bir sıra satış məntəqəsinə malik olan "Dokta" MMC aptek təşkilatlarına dair tələbləri pozduğuna görə cərimələnib.***

Yerli medianın verdiyi məlumata görə, müvafiq qurum tərəfindən MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 452.1-ci (Apteklərdə resept təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılmasına və ya yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarının pozulmasına görə) maddəsinə əsasən cərimə protokolu tərtib edilib. Daha sonra protokol baxılması üçün Abşeron Rayon Məhkəməsinə göndərilib. Məhkəmədə barəsində protokol tətbiq edilmiş MMC ilə bağlı müraciətə baxılıb.

Hakim Abusət Qasımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, şirkətə inzibati tənbeh tətbiq edilib, yəni cərimə kəsilib.

Maraqlıdır ki, 10 gün əvvəl isə "Dokta" MMC-yə əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan (Dərman vasitələri haqqında qanunvericiliyin pozulması) inzibati xəta protokolu tərtib olunduğu barədə xəbər yayılmışdı. Məlumatda protokolun İnzibati Xətalar Məcəlləsinin 221.1-ci maddəsi ilə irəli sürüldüyü bildirilirdi.

İnzibati Xətalar Məcəlləsinin 221.1-ci maddəsinə görə bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, bu əməllər az miqdarda törədildikdə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər 1500-2000 manatadək məbləğdə, hüquqi şəxslər 5000-7000 manatadək məbləğdə cərimə edilir.

İş Bakı Şəhər Nəsimi Rayon Məhkəməsində hakim Anar İbadzadənin icraatındadır.

Bir ay öncə isə xəbər yayıldı ki, "Dokta" MMC ticarət qaydaları əleyhinə olan (Fiziki şəxslərə dərman vasitələrinin buraxılması qaydalarının və aptek təşkilatlarına dair tələblərin pozulması) inzibati xəta üzrə cərimə oluna bilər. Xəbərdə deyilirdi ki, protokol İnzibati Xətalar Məcəlləsinin 452.3-cü maddəsi ilə irəli sürülüb.

Həmin məcəllənin 452.3-cü maddəsinə görə aptek təşkilatlarına dair tələblərin pozulmasına görə vəzifəli şəxslər 500-700 manatadək məbləğdə, hüquqi şəxslər 1000-2000 manatadək məbləğdə cərimə edilir.

Göründüyü kimi, təkcə son bir ayda haqqında danışdığımız məşhur apteklər şəbəkəsi üç cərimə protokolu ilə üz-üzə qalıb. Ümumiyyətlə isə "Dokta" ilə bağlı tərtib edilən cərimə protokolları barədə xəbərlər axır bir ildə demək olar ki, adi hal alıb. Məsələn, bir neçə ay öncə şirkət sanitariya-gigiyena və sanitariya epidemioloji qaydaları pozmaqda ittiham edilirdi. Bildirilirdi ki, onun barəsində İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə inzibati iş başlanıb. Bu maddə qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılması ilə bağlıdır. İttihamdan belə aydın olur ki, adı çəkilən MMC-də sertifikasiyadan keçməyən şəxslər çalışır.

Araşdırmalarımız zamanı o da aydınlaşdı ki, Cavanşir Feyziyevə aid olduğu bildirilən "Dokto" barədə təkcə ötən ilin avqust ayında bir neçə dəfə külli miqdarda cərimə protokolu yazılıb. Həmin vaxt adı çəkilən MMC haqqında İnzibati Xətalar Məcəlləsinin 452.4-cü (Aptek təşkilatlarına dair tələblərin pozulması) maddəsi ilə protokol tərtib olunub. Protokolda şirkətin 5000 manatdan 7000 manatadək məbləğdə cərimələnməsi nəzərdə tutulurdu. Eyni günlərdə eyni maddə ilə cərimələnən "Dokta" barəsində daha bir iş baxılması isə üçün Abşeron Rayon Məhkəməsinə göndərilib.

Qeyd edək ki, əczaçılıq sahəsində fəaliyyət göstərən "Dokta" MMC 22 sentyabr 2008-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 1000 manat olan şirkətin qanuni təmsilçisi Muxtarov Elməddin Fəxrəddin oğludur.

Yerli media isə adıçəkilən şirkətin deputat Cavanşir Feyziyevə məxsus olduğunu yazıb. Bildirildiyinə görə, "Dokta" MMC onun əczaçılıq sahəsində təsis etdiyi ilk şirkətdir.

Bir müddət əvvələdək "Vita Aptekləri" MMC-nin qanuni təmsilçisi Sadıqov Elçin Ağasadıq oğlu həm də "Dokta" MMC-nin qanuni təmsilçisi idi. Bu səbəbdən "Vita Aptekləri"nin də deputatın biznes şəbəkəsinə daxil olduğuna dair iddialar dolaşır.

2023-cü ildə "Vita Aptekləri" böyük məbləğdə cərimələnərkən həmin şirkətin onunla bağlılığı barədə xəbərlərin doğru olmadığını bildirən Cavanşir müəllim belə demişdi: "Bu şirkətin, eləcə də Azərbaycan əczaçılıq bazarında fəaliyyət göstərən heç bir şirkətin mənə, ailə üzvlərimə və qohumlarıma aidiyyatı yoxdur".

***Sənan Mirzə***

# Əbülfəs Qarayevin Rusiyadakı şirkəti bağlana bilər

## Sabiq nazirin xaricdəki biznes işləri qaydasında getmir

***Sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin qızı Suad Malekiyə (Qarayeva) məxsus olan və Rusiyada fəaliyyət göstərən "QALS" şirkəti fəaliyyətini dayandıra bilər. "Unikal"ın əldə etdiyi məlumata görə, buna səbəb həmin şirkətin gəlirlərinin kəskin azalmasıdır.***

Belə ki, şirkət son bir il ərzində 7,1 milyon rubl (79 min dollar) gəlir əldə edib. Bu barədə Rusiya Vergilər xidmətinin açıqladığı məlumatda bildirilib ki, Suad Malekinin yeganə təsisçisi olduğu "QALS" şirkətinin gəlirləri əvvəlki illə müqayisədə 2,9 milyon rubl və ya 29% azalıb.



Qazancının hardasa üçdə birini itirən "QALS"ın gəlirlərindəki kəskin azalmanın səbəbləri bəlli deyil. İstisna deyil ki, Ukrayna ilə müharibəyə başlayan Rusiyanın ciddi sanksiya ilə üzləşməsi ilə bağlıdır.

Maraq üçün bildirək ki, 2024-cü ilin oktyabrında Rusiyanın hətta böyük şirkətlərinin də xarici təchizatçıları əvəz etmək və yerli istehsalçıların analoqlarını axtararkən dərin böhranla üzləşdiyi açıqlanmışdı. Bu, "Trust Technologies" konsaltinq şirkəti tərəfindən hazırlanan araşdırmada bildirilirdi. "Vedomosti" qəzeti yazırdı ki, əsasən metallurgiya, neft-qaz və tikinti kimi 15 sahədən 60-a yaxın aparıcı şirkətin iştirak etdiyi araşdırmada respondentlərin 68%-i idxalın əvəzlənməsi ilə bağlı problemlərin olduğunu bildirib. Sitat: "İdxalın əvəzlənməsinin dərin böhranı logistikanın mürəkkəbləşməsi və bahalaşması, transsərhəd ödənişlərlə bağlı problemlər və adi tədarükçülərin sanksiyalara görə Rusiya biznesi ilə işləməkdən imtina etməsində özünü göstərir. Nəticədə, bir çox şirkət hələ də müvəqqəti tədbirlərə, məsələn, Rusiyada mövcud olmayan hissələri və komponentləri vasitəçi ölkələrdən satın alır".

Düzdür, 5 iyul 2013-cü ildə Moskva şəhəri, Tatarskaya küçəsi 7 ünvanında dövlət qeydiyyatına alınan "QALS" daşınmaz əmlakın alqı-satqısı ilə məşğuldur, lakin Rusiyanın iri şirkətləri belə sanksiyanın təsirlərinə məruz qalırsa, ümumi iqtisadi aktivliyin aşağı düşməsi fonunda Əbülfəs Qarayevin ailə şirkətinin də bu prosesdən mənfi təsirlənməsi kifayət qədər realdır.

Xatırladaq ki, mətbuatda yayılan məlumatlara görə, "QALS"ın abbreviaturası sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərflərindən (Qarayev, Abülfəz, Lalə (həyat yoldaşı) və Suad (qızı)) ibarətdir.

(Qısa haşiyə çıxaraq qeyd edək ki, "QALS" adı ilə Azərbaycanda fəaliyyət göstərən şirkətlərin də Əbülfəs Qarayevə bağlı olduğu bildirilir. "QALS Gallery", "QALS Beauty and Spa" və "QALS" MMC-yə sabiq nazirə yaxın olan şəxslər rəhbərlik edir. Bunlardan başqa sabiq nazirin həyat yoldaşı Kazımova Lalə Tofiq qızının (Azərbaycan SSR xalq artisti, rejissor Tofiq Kazımovun qızı) rəhbərlik etdiyi "Yol+İlk Elmi-Populyar Dərgi Redaksiyası" MMC 29 mart 2006-cı il tarixində dövlət qeydiyyatına alınıb.

Sabiq mədəniyyət nazirinin həyat yoldaşı və qızından başqa kürəkəni Şahriar Maleki də Azərbaycanda biznes fəaliyyəti ilə məşğuldur. Əslən İrandan olan Böyük Britaniya vətəndaşı Şahriar Maleki 02 noyabr 2016-cı il tarixində dövlət qeydiyyatına alınan "Green Farm Azərbaycan" MMC-nin qanuni təmsilçisi olub. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən "Green Farm Azərbaycan" MMC-yə 2017-ci ilin mayında Biləsuvar İcra Hakimiyyəti tərəfindən 5 min hektar torpaq sahəsi ayrılıb. Qarayevin kürəkəninə 5 min hektar torpaq sahəsi ayıran Biləsuvar Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Mahir Quliyev 29 aprel 2020-ci il tarixində Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində saxlanılaraq Bakıya gətirilib. Bundan təxminən 20 gün sonra Əbülfəs Qarayev Mədəniyyət naziri vəzifəsindən azad edilib).

Sabiq nazirin şimal qonşumuzdakı biznesinə gəlincə, onun özü də Rusiya paytaxtında biznes fəaliyyəti ilə şəxsən məşğuldr. Belə ki, Əbülfəs Qarayev 2023-cü ilin may ayında Rusiyada "Korporaçiya ÇE" (OOO "Korporaüiə ÇE" - İNN: 7725322819) adlı şirkətin 50%-lik payını satın alaraq 2 təsisçidən biri olub. Şirkətin fəaliyyət sahəsinə balıq, xərçəngkimilər və molyusklar da daxil olmaqla digər ərzaq məhsullarının topdan satışı daxildir.

"QALS" şirkətindən fərqli olaraq "Korporaçiya ÇE" şirkətinin gəlirləri 2024-cü ilin payızında açıqlanan rəqəmlərə əsasən son bir ildə 192 dəfə artaraq 106,5 milyon rubl (1,2 milyon dollar) təşkil edib. Bununla belə, "Korporaçiya ÇE"nin hazırkı durumu ilə bağlı məlumat yoxdur.

Xatırladaq ki, Əbülfəs Qarayev 2020-ci ilin mayında Mədəniyyət naziri vəzifəsindən azad edilmişdi. Bundan günlər əvvəl isə Dövlət Təhlükəsizliyi Xidməti mayın 8-də Mədəniyyət Nazirliyində əməliyyat keçirmişdi. Əməliyyat zamanı adı çəkilən qurumda çox sayda qanunsuzluqlar, o cümlədən rüşvət və korrupsiya faktları ortaya çıxmış, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov saxlanılmışdı. Həmin vaxt Qarayevin özünün də cinayət məsuliyyətinə cəlb ediləcəyi yönündə xəbərlər yayılsa, hətta keçmiş nazirin ölkədən çıxışının yasaqlandığı bildirilsə də, bu məlumatlar təsdiqini tapmadı.

***Sənan Mirzə***

# "Zəfər konstitusiyasının qəbul olunması mümkündür" - Komitə sədri



***"Konstitusiya və Suverenlik ili" çərçivəsində müxtəlif yerli və beynəlxalq təşkilatlarla ardıcıl görüşlər keçiriləcək, müzakirələrin təşkil ediləcək.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında komitə sədri Zahid Oruc deyib.

O bildirib ki, "Konstitusiya və Suverenlik ili" çərçivəsində qarşıda bir çox çağırışlar, baxışlar var: "Bu çağırışlar arasında yeni referendumun keçirilməsi də var. Konstitusiya dövlət quruculuğunun Baş Planıdır, bu anlamda Zəfər konstitusiyasının qəbul olunması da mümkündür. Yeni konstitusion quruluşlar məsələsi parlamentdə tez-tez qaldırılır. İcra hakimiyyətləri sistemi ilə paralel xüsusi nümayəndəlik institutu formalaşıb. Bu artıq tək azad edilmiş ərazilərdə deyil, həm də Naxçıvanda da tətbiq olunur".

***Anar Kəlbiyev***

# Sərhəddə yenidən demarkasiya işlərinə başlanıldı



***Dünəndən etibarən Tavuş bölgəsində demarkasiya işlərinə başlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" qəzeti yazıb. "Bəzi şəxslər Ermənistan-Azərbaycan-Gürcüstan sərhədlərinin kəsişməsində əraziyə baxış keçirir. Dünən bir neçə saat ərzində tərəflər ölçmə aparıblar", - deyə məlumatda qeyd olunub.

Tavuş qubernatorunun müavini Vahe Qalumyan isə sualdan yayınaraq bu barədə xəbəri olmadığını deyib.

Qeyd edək ki, 2025-ci il yanvarın 16-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on birinci görüşü keçirilib.

Bildirilib ki, görüş zamanı tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib və dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər aparılması barədə razılığa gəliblər.

Həmçinin tərəflər delimitasiya işlərinin görülməsi qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.

Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

***Ağarza Elçinoğlu***

# Deputatlar Qarabağa gedəcək

***Milli Məclisin Aqrar siyasət komitəsinin yaz sessiyası üçün iş planı müəyyənləşdib.***



"Unikal"ın məlumatına görə, iş planına əsasən deputatlar yaz sessiyası müddətində işğaldan azad edilmiş ərazilərdə görülən işlərlə tanış olacaq.

Aqrar sahədə əldə olunan nəticələri təbliğ edəcəklər.

03_27 IYUI-QARA.qxd 1/23/2025 7:51 PM Page 11



# 2024-cü ildə Ağsu rayonunun sənaye sahəsindəki göstəriciləri

***2024-cü ilin yanvar-dekabr aylarında 57060,5 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmiş və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə 2,1 faiz az olmuşdur.İstehsal edilmiş malların və göstərilmiş xidmətlərin 91,7 faizini sənaye məhsulları, 8,3 faizini isə sənaye xidmətləri təşkil etmişdir.***

Ümumi sənaye məhsulunun 91,8 faizi emal,1,0 faizi mədənçıxarma, 7,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunun payına düşür.

**2024-cü ilin yanvar-dekabr aylarında sənayenin bölmələri üzrə məhsul istehsalının strukturu, faizlə**




İstehlakçılara 56869,9 min manatlıq sənaye məhsulu göndərilmiş, 01 yanvar 2025-ci il tarixinə sənaye müəssisələrinin anbarlarında 9868,8 min manatlıq hazır məhsul ehtiyatı olmuş və sənayenin ümumi məhsulunun 17,3 faizini təşkil etmişdir.

**Sənayenin fəaliyyət növləri üzrə məhsul buraxılışı**

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-dekabr aylarında istehsal edilmişdir, min manat | 2023-cü ilin yanvar-dekabr aylarına nisbətən sabit qiymətlərlə, faizlə | İstehsalın ümumi həcmində xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **57060,5** | **97,9** | **100** |
| *o cümlədən:* | | | |
| **Emal sənayesi** | **52371,9** | **97,7** | **91,8** |
| *o cümlədən:* | | | |
| qida məhsullarının istehsalı | 38486,8 | 105,9 | 67,4 |
| içki istehsalı | 9327,5 | 73,6 | 16,3 |
| mebellərin istehsalı | 2216,2 | 92,2 | 3,9 |
| poliqrafiya məhsullarının istehsalı | 233,6 | 113,2 | 0,4 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 324,0 | ----- | 0,6 |
| tikinti materiallarının istehsalı | 695,4 | ----- | 1,2 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 241,2 | ----- | 0,4 |
| metallurgiya | 810,6 | ------ | 1,4 |
| sair sənaye məhsullarının istehsalı | 36,6 | ------ | 0,1 |
| **Mədənçıxarma sənayesi** | **279,6** | **---** | **1,0** |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **4011,4** | **104,7** | **7,0** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **397,6** | **90,2** | **0,7** |

Emal sektorunun müəssisələri tərəfindən 2024-cü ilin yanvar-dekabr aylarında 52371,9 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmiş, rayon üzrə məhsul istehsalının və göstərilmiş xidmətlərin ümumi həcmində 91,8 faiz təşkil etmiş və 2023-cü ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 2,3 faiz azalmışdır. Məhsul istehsalının əsasını qida məhsullarının istehsalı (67,4 faiz), içki istehsalı (16,3 faiz), mebellərin istehsalı (3,9 faiz) təşkil etmişdir.

Qida məhsullarının istehsalı sabit qiymətlərlə 5,9 faiz artaraq 38486,8 min manat təşkil etmiş və emal bölməsi məhsullarının 67,4 faizini təşkil etmişdir.

İçki istehsalının real həcmi sabit qiymətlərlə 26,4 faiz azalaraq 9327,5 min manat təşkil etmişdir.

Elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən 2024-cü ilin yanvar-dekabr aylarında 4011,4 min manatlıq məhsul buraxılmış və xidmətlər göstərilmişdir. Bu göstərici 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə 4,7 faiz artmışdır.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin real həcmi 2023-cü ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 9,8 faiz azalaraq 397,6 min manat təşkil etmişdir.

***Ağsu Rayon Statistika İdarəsinin baş məsləhətçisi Leyla Cəbrayılova***

# Cahangir Əsgərovun ailə şirkətindən xəbər var

## Xalis mənfəəti artsa da, aktivlərinin dəyəri azalıb - Bundan sonra necə olacaq?

***Yola salmaq üzrə olduğumuz həftə "Premium Bank" ASC-nin 2024-cü ili 9,684 milyon manat xalis mənfəətlə başa vurduğu açıqlanıb. Bu, 2023-cü illə müqayisədə 29,9% və ya 2 milyon 231 min manat çoxdur. 2023-cü ili bank 7 milyon 453 min manat mənfəətlə başa vurmuşdu.***

"Premium Bank"ın gəlirlərinin dəyəri 49,188 milyon manat təşkil edib ki, illik müqayisədə 0,9% və ya 433 min manat azdır. Bankın gəlirlərinin dəyəri 2023-cü ildə 49 milyon 621 min manat olub. Bu ilin hesabat dövründə bankın faiz xərclərinin dəyəri 11 milyon 240 min manat təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 545 min manat və ya 5% çoxdur.

"Premium Bank"ın qeyri-faiz xərclərinin dəyəri 2024-cü ildə 26 milyon 739 min manat olub ki, bu da 2023-cü illə müqayisədə 14,9% və ya 4 milyon 686 min manat azdır.



"Premium Bank"ın aktivlərinin dəyəri 2024-cü ildə 640 milyon 892 min manat təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 6,4% və ya 44 milyon 224 min manat azdır. 2023-cü ildə bankın aktivlərinin həcmi 685 milyon 116 min manat olub.

Bankın 2024-cü ildə öhdəliklərinin dəyəri 463 milyon 009 min manat olub ki, bu da 2023-cü illə müqayisədə 8,8% və ya 412 milyon 226 min manat azdır. 2023-cü ildə bankın öhdəliklərinin dəyəri 507 milyon 823 min manat təşkil edib.

Xatırladaq ki, "Premium Bank" 1993-cü ildə "AZAL Bank" adı ilə yaradılıb, 2008-ci ildə adını "Silk Vey Bank"a dəyişib, 2018-ci ildə isə yenidən rebrendinq edib. Onun nizamnamə kapitalı 154,601 milyon manatdır. Bankın səhmdarları 84,46 % payla Zərifə Həmzəyeva, 15,22 % payla "VIP Aviation Services" MMC və 0,32 % payla Elvira Əhmədovadır.

Bankın əsas səhmdarı Zərifə xanım bir həftə öncə vəfat edib. O, "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin sabiq prezidenti Cahangir Əsgərovun həyat yoldaşı idi.

Əsgərov ötən ilin sentyabrında AZAL rəhbəri vəzifəsindən azad edilib. O, 1996-cı ildə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru, 2008-ci ildən isə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin olunmuşdu. 28 il boyunca AZAL-a rəhbərlik edənb Cahangir müəllim həmin müddətdə özünə nəhəng biznes imperiyası yaratmağı bacarıb.

"Premium Bank"ın ikinci böyük səhmdarı "VIP Aviation Services" MMC-nin də Əsgərovun nəzarətində fəaliyyət göstərdiyinə dair iddialar var. Adı çəkilən bankın ötən ilki mənfəətində artım olsa da, aktiv dəyərlərində azalma olması diqqət çəkicidir.

Digər tərəfdən, bu bankın problemli kreditlərinin də çox olduğuna dair iddialar var.

Ekspertlərin fikrincə, Cahangir Əsgərovun AZAL prezidenti vəzifəsindən azad edilməsinin ona məxsus şirkətlərin, o cümlədən, "Premium Bank"ın fəaliyyətinə necə təsir edəcəyini zaman göstərəcək. Azərbaycan təcrübəsi göstərir ki, yüksək vəzifəli şəxslər öz postlarını itirdikdən sonra onların biznes imperiyası da ciddi şəkildə zəifləməyə başlayır. Cahangir müəllimin nəzarətindəki şirkətlərin də oxşar təcrübəni yaşayıb-yaşamayacağını qarşıdakı aylarda görəcəyik.

Digər tərəfdən, "Premium Bank"ın 84.47 faizlə əsas səhmdarının vəfatının bu bank üçün ciddi problemlər yarada biləcəyi barədə fikirlər səslənir. Kommersant.az-ın analizinə görə, ilk növbədə, korporativ müştərilərin bankı tərk etməsi riski mövcuddur. Böyük şirkətlər və biznes qurumları adətən uzunmüddətli sabitlik və güvən tələb edir. Bankın səhmdar və idarəetmə strukturunda baş verəcək dəyişikliklər, eyni zamanda gələcək strategiya ilə bağlı qeyri-müəyyənlik iri müştəriləri alternativ banklara üz tutmağa məcbur edə bilər. Bu, bankın depozit portfelinin zəifləməsinə və likvidlik problemlərinin yaranmasına səbəb ola bilər.

Eyni zamanda, bankın maliyyə sıxıntısı yaşaması ehtimalı artır. Müştərilərin və depozitlərin azalması bankın likvidliyinə ciddi zərbə vura bilər. Əgər depozit axını sürətlənərsə, bank daha yüksək faizlə maliyyə axtaracaq və ya alternativ borc mənbələrindən istifadə etməyə məcbur qalacaq. Bu isə maliyyə xərclərinin artmasına və gəlirlərin azalmasına gətirib çıxara bilər.

Bankın kredit reytinqinə mənfi təsirlər də gözlənilir. Maliyyə göstəricilərində baş verəcək potensial geriləmələr beynəlxalq və yerli maliyyə qurumlarının bankla bağlı risk qiymətləndirmələrini yenidən nəzərdən keçirməsinə səbəb ola bilər. Bu, bankın borc cəlb etmə imkanlarını çətinləşdirəcək və maliyyə bazarlarında inamı azaldacaq.

Ən kritik ssenari kimi bankın lisenziyasını itirməsi ehtimalı da mövcuddur. Əgər Premium Bank müştəri axınını saxlaya bilməsə, maliyyə dayanıqlığını qorumaqda çətinlik çəksə və tənzimləyici orqanların kapitalla bağlı tələblərinə cavab verə bilməsə, bu, bankın fəaliyyətinin dayandırılmasına gətirib çıxara bilər. Azərbaycanın Mərkəzi Bankı müəyyən tələblərə cavab verməyən və maliyyə dayanıqlığını itirən bankların lisenziyasını ləğv edə bilər.

"Bütün bu risklərin qarşısını almaq üçün bank rəhbərliyi və səhmdarları təcili tədbirlər görməlidir. Müştərilərin və investorların inamını qorumaq üçün aydın strategiya açıqlanmalı, idarəetmədə davamlılıq təmin edilməli və maliyyə göstəricilərinin sabit qalması üçün lazımi addımlar atılmalıdır. Əks halda, Premium Bank çətin bir dövrə girə bilər və hətta lisenziyasını itirməklə bazardan tamamilə çıxa bilər" - "Kommersant"ın təhlilində vurğulanıb.

Əldə etdiyimiz məlumata görə, Zərifə xanımın vəfatından sonra onun "Premium Bank"dakı səhmlərinin taleyinə yaxın vaxtlarda aydınlıq gələcək.

***Toğrul Əliyev***

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 12



## 5.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Məktəbliləri sosial şəbəkə təhdidindən necə qoruyaq?

### Nihal Hacıyeva: "Əksinə indi valideynlər razılıq edirlər ki, smartfonlar dərs prosesini pozur, şagirdin diqqətini dərsdən yayındırır"



***Uşaqlar gələcəyimizdir. Onların düzgün tərbiyəsi cəmiyyətin gələcəyinə əhəmiyyətli dərəcədə təsir edir. Odur ki, dövlət də gənc nəslin düzgün tərbiyə olunaraq cəmiyyətə inteqrasiyası, sağlam ruhda tərbiyə olunmasını aşılayır. Amma sosial şəbəkələrin geniş yayılması uşaq və gənclərin tərbiyəsinə təsirsiz ötüşmür. Bugünlərdə daha bir məktəbli dərs prosesində "TikTok" sosial platformasında canlı yayım açıb. Uşaqların sosial şəbəkələrdən istifadəsi onların tərbiyəsinə təsirsiz ötüşmür.***

Məktəb direktorları da valideynlərin sosial şəbəkələrdən istifadəsinə ciddi nəzarət etməli olduğunu, məktəblərdə smartfonlardan istifadəsinə məhdudiyyətlərin artıq günün tələbinə çevrildiyini söyləyirlər.

193 saylı məktəbin direktoru Nihal Hacıyeva "Unikal" qəzetinə müsahibəsində bildirib ki, üç ildir məktəbdə şagird davranış qaydası pilot layihəsi tətbiq olunur. O, bildirib ki, davranış qaydası üzrə təlimatın bəndlərindən biri də məktəblərdə smartfonlara qadağadır: "Əvvəl bəzi şagirdlər və valideynlər buna etiraz etsə də, indi heç bir etiraz yoxdur. Əksinə indi valideynlər razılıq edirlər ki, smartfonlar dərs prosesini pozur, şagirdin diqqətini dərsdən yayındırır. Smartfonlar hər gün dərs başlamazdan öncə yığılır, dərslər başa çatdıqdan sonra şagirdlərə təhvil verilir".

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Zenfira Sevdimalı "Unikal" qəzetinə açıqlamasında bildirib ki, xüsusi hallar istisna olmaqla ümumtəhsil müəssisələrində dərs prosesi zamanı ağıllı telefonlar, ağıllı saatlar, planşetlər və digər qurğuların istifadəsi tövsiyə edilmir.

"Xüsusi hallarda isə dərsin mövzusundan və fənn müəlliminin tələbindən asılı olaraq tədris olunan mövzunun daha yaxşı mənimsənilməsi, interaktiv metodların tətbiqi üçün ağıllı elektron cihazlardan istifadə edilə bilər. Ötən tədris ilindən etibarən ölkə üzrə 300-dən çox ümumtəhsil müəssisələrində tətbiq edilən şagird davranış qaydalarının əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur".

O, bildirib ki, həmin qaydaların tələblərinə əsasən, təhsilalanların tədris prosesi zamanı xüsusi hallar istisna olmaqla ağıllı telefon və digər cihazlardan istifadə etməsi qadağan edilir: "Müasir dövrdə həyatın bütün sahələrində olduğu kimi, təhsildə də çağdaş texnologiyaların, xüsusi ilə internetin təsir dairəsinin xaricində təsəvvür etmək mümkün deyil. Artıq orta məktəblərdə ən aşağı siniflərdən etibarən tədris prosesində internetin imkanlarından istifadə olunur. Lakin bu zaman da, ümumi təhsil müəssisələrinin internetə çıxışını təmin edən müvafiq provayderlər tərəfindən xüsusi onlayn süzgəcləmə sistemi tətbiq edilir ki, bu da internet istifadəçilərinin uyğun hesab olunmayan sayt və məlumatlara əlçatanlılığının qarşısını alır".

"Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyinin sədri İlqar Orucov "Unikal"a bildirib ki, üzərində mobil telefon olan şagirdin istər-istəməz fikri yayınır. Məktəb yaşlı uşaqlar bəzən özünü təsdiq etmək üçün hər hansı neqativ halı çəkib yaymaqdan zövq alırlar. Kifayət qədər belə hallar baş verib. Bu da onların tərbiyəsini pozur. Mobil telefonlarda süzgəc olmadığından hər hansı informasiyanı almağa qadağa qoymaq olmur. Bu isə şagirdin tərbiyəsinə mənfi təsir göstərir. Ona görə də, ən azından məktəblərdə şagirdlərin mobil telefondan istifadə etməsinə qadağa qoyulmalıdır. Bu onların davranışlarına təsir baxımından da vacibdir".

Təhsil üzrə ekspert Kamran Əsədov isə "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanda ümumi təhsil müəssisələrində şagirdlərin dərs vaxtı telefon və digər ağıllı cihazların istifadəsinin qadağan edilməsi qərarı təhsil sistemində müəyyən müsbət təsirlər yarada biləcək addım kimi qiymətləndirilsə də, qərarın uzunmüddətli təsirləri və onun effektivliyi ilə bağlı müzakirələr davam edir. O, bildirib ki, bu qadağanın əsas məqsədi tədris prosesində intizamı təmin etmək, şagirdlərin diqqətini dərs materialına yönəltmək və təhsil keyfiyyətini artırmaqdır.

Xatırladaq ki, 2022-ci ildə hazırlanan "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" sənədində bir sıra qadağalar nəzərdə tutulub. Həmin layihəyə görə, şagirdlər məktəbə ağıllı saat, digər elektron cihazlar, mobil telefon gətirə, amma dərs zamanı onlardan istifadə edə bilməzlər.

Məktəblərdə pilot tətbiqi üçün nəzərdə tutulmuş qaydalara görə, həmçinin şagirdlər dar geyim, hündürdaban ayaqqabı, dizdən yuxarı olan ətək, zinət əşyası və bahalı saat kimi aksesuarlar, qeyri-adi saç düzümü və saç rəngi, uzun və rəngli dırnaqlar, makiyaj, saqqal ilə dərsə gələ bilməzlər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Məktəblərdə media savadlılığının tədris olunması təklif olunur

***Azərbaycanda orta məktəblərdə media savadlılığının tədris olunması təklif edilib.***

"Unikal" xəbər verir ki, bu təkliflə parlamentin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında deputat Sevil Mikayılova çıxış edib.

"Yaxşı olar ki, təhsildə media savadlılığı fənni daxil edilsin. Media savadlılığının məktəblərdə tədris olunmasına nail olmamışıq", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

## Dövlət Xidməti Sabirabadda gənclər üçün tədbirlər keçirdi

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) təşkilatçılığı ilə Sabirabad rayonunda tədbirlər keçirilib.***

"Unikal" xəbər verir ki, əvvəlcə Dövlət Xidmətinin Sabirabad rayon şöbəsində həmin rayondan olan çağırışçıların müddətli həqiqi hərbi xidmətə təntənəli surətdə yolasalma mərasimi təşkil edilib. Tədbirdə Sabirabad rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, SHXÇDX-nın rəhbər heyəti, valideynlər və digər qonaqlar iştirak ediblər. Hərbi xidmətə yola düşən çağırışçılar Vətənə şərəflə xidmət edəcəklərini söz veriblər.

Daha sonra Sabirabad rayon İcra Hakimiyyətinin dəstəyi ilə Mədəniyyət Mərkəzində gənclər üçün "Vətənpərvər Azərbaycan gəncliyi - Sağlam gənclik, sağlam gələcək" mövzusunda görüş keçirilib. Görüşdə açılış nitqi ilə çıxış edən Siraqəddin Cabbarov belə tədbirlərin gənclərdə vətənpərvərlik hissinin artmasına müsbət təsir göstərdiyini bildirib.

Tədbirdə çıxış edən SHXÇDX-nın Çağırışaqədərki hazırlıq idarəsinin rəisi polkovnik-leytenant Füzuli İsmayılov müharibə zamanı gənclərin vətənpərvərliyindən, sabahın əsgəri olacaq çağırışçıların fiziki və psixoloji statuslarının yüksək səviyyədə saxlanılmasından, həmçinin yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, onların həyat üçün zərərli vərdişlərdən uzaqlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Dövlət Xidmətinin İctimaiyyətlə iş və beynəlxalq əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov ali məktəbə daxil olmağa hazırlaşan gənclərə tövsiyə və məsləhətlərini verib. Həmçinin xaricdə təhsil, təhsilə görə verilən möhlət barədə də geniş məlumat çatdırıb.

Daha sonra SHXÇDX-nın Sabirabad rayonu şöbəsinin rəisi polkovnik Həbib Əliyev ilkin hərbi qeydiyyat, tibbi şəhadətləndirmə, çağırışçıların hüquq və vəzifələri barədə geniş məlumat verib və tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Tədbirdə iştirak edən Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri də çıxış edərək öz təəssüratları ilə bölüşüblər.

Qeyd edək ki, analoji tədbirlər ölkənin bir sıra rayonlarında təşkil edilib və növbəti aylar ərzində davam etdirilməsi nəzərdə tutulur.

## Azərbaycan milli mətbuatının 150 illiyi yubiley medalı təsis ediləcək

***"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı təsis ediləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi təklif olunur.

Məsələ yanvarın 24-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə olunacaq.

***Anar Kəlbiyev***

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 13



# Azərbaycanda rəqəmsal hüquqlara dair qanun layihəsi hazırlanacaq



***Azərbaycanda yeni nəsil rəqəmsal hüquqlara dair qanun layihəsi hazırlanacaq.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin İnsan hüquqları komitəsinin yaz sessiyası üçün İş Planına daxil edilib.

Yaz sessiya müddətində rəqəmsal məkanda vətəndaşlarının hüquqlarının qorunması ilə bağlı dinləmələr, bu sahədə qanun layihəsinin işlənib hazırlanması nəzərdə tutulur.

# Naxçıvan Sukanalizasiya İdarəsinə yeni rəis təyin olundu

***Naxçıvan Sukanalizasiya İdarəsinin rəisi vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı müvafiq əmr imzalanıb.

Əmrə əsasən, Mustafa Vəli oğlu Mustafayev Naxçıvan Sukanalizasiya İdarəsinin rəisi vəzifəsindən azad edilib. Digər əmrlə həmin vəzifəyə Samir Baxşəliyev təyin olunub.

# Azərbaycanda cərrahi əməliyyatlar artıb



***2024-cü il ərində cərrahi əməliyyat və prosedurlarda ötən illərlə müqayisədə artım müşahidə olunub.***

"Unikal" xəbər verir ki, bu barədə TƏBİB məlumat yayıb.

Azərbaycanda ötən il ərzində 375 520 cərrahi əməliyyat və prosedur (345 191-i stasionar, 30 329-u ambulator olmaqla) icra olunub.

Ötən illərlə müqayisə etdikdə cərrahi əməliyyat və prosedurlar 2022-ci illə müqayisədə 16%, 2023-cü illə müqayisədə isə 9% artıb.

# İrandan Azərbaycana 80 kq narkotikin keçirilməsinin qarşısı alınıb

***İrandan Azərbaycana 80 kq narkotikin keçirilməsinin qarşısı alınıb.***

Bu barədə "Unikal"a Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

Bildirilib ki, dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı keçirilmiş əməliyyat-qoşun tədbirləri nəticəsində yanvar ayının 20-də saat 20:01-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları Komandanlığının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində ümumi çəkisi 80 kiloqram 685 qram narkotik vasitə (77 kq 645 qram marixuana, 3 kq 35 qram heroin, 5 qram tiryək),1000 ədəd narkotik tərkibli metadon M-40 və 245 ədəd müxtəlif tərkibli dərman həbinin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Xaçmazda dələduzluq edənlər saxlanılıblar




***Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə ayrı-ayrı vaxtlarda ümumilikdə 26 şəxsə qarşı dələduzluq edən Nicat Fərmanzadə saxlanılıb.***

DİN-in mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, araşdırmalarla müəyyən olunub ki, o, tanıdığı şəxslərin ailə üzvlərinə zəng edərək onların övladlarına və ya digər yaxınlarına təcili pul lazım olduğunu bildirib etibardan sui-istifadə edərək zərərçəkmişlərə ümumilikdə 8613 manat maddi ziyan vurub.

Keçirilən digər tədbirlərlə isə rayon sakini Nurlan Bayramov dələduzluq edərək digər şəxslərin adına onlardan xəbərsiz onlayn yolla kredit götürdüyü üçün saxlanılıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

# ADY və İran Dəmir Yolları əməkdaşlığı genişləndirir

***"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov Tehranda keçirilən Azərbaycan-İran Hökumətlərarası Birgə Komissiyasının növbəti iclası çərçivəsində İran Dəmir Yollarının rəhbəri Cabbar Əli Zakeri Sardrudi ilə görüşüb.***




"Unikal" xəbər verir ki, dəmiryol rəhbərləri İranın Astara şəhərində yerləşən yük terminalının fəaliyyətinin genişləndirilməsi və terminalda aparılan işləri müzakirə ediblər.

Qeyd olunub ki, həm Azərbaycan, həm də İran ərazisindəki Astara terminalları Şimal-Cənub dəhlizi üzrə artan yükaşırma həcmlərinin daha sürətli və effektiv həyata keçirilməsinə, dəhlizin strateji potensialının reallaşdırılmasına, eləcə də Azərbaycanın və İranın nəqliyyat infrastrukturunun gücləndirilməsinə və regional ticarətin inkişafına imkan verir.

Görüş zamanı ADY və İran Dəmir Yolları arasında "Astara terminalının tikintisi və istismar müqaviləsinin icrasına dair Strateji Əməkdaşlıq Planı" imzalanıb.

Sənəd Azərbaycan və İran İslam arasında 22 yanvar 2025-ci ildə imzalanmış 16-cı Hökumətlərarası Birgə Komissiyanın Protokolunun dəmiryol bölməsinə əsaslanaraq Astara terminalının Baş Planının təsdiqlənməsi, terminalda tikinti işlərinin bu ilin sonunadək tamamlanması, yekun investisiyaların tanınması və digər məsələləri əhatə edir.

# Xızı Rayon Statistika İdarəsində anım tədbiri keçirilib

***17 yanvar 2025-ci il tarixində Xızı Rayon Statistika İdarəsinin təşkilatçılığı ilə Azərbaycan xalqının qan yaddaşına qəhrəmanlıq günü kimi əbədi həkk olunmuş 20 Yanvar faciəsinin 35-ci ildönümü qeyd edilib.***

Öncə 20 Yanvar şəhidlərinin, eləcə də, Azərbaycanın müstəqilliyi, azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbiri giriş sözü ilə açan Xızı rayon Statistika İdarəsinin rəisi Rövşən Quliyev Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən artıq 35 il ötdüyünü qeyd edərək bildirdi ki, həmin gün Azərbaycan xalqı azadlıq uğrunda mübarizə əzminin heç bir qüvvə tərəfindən qırıla bilinməyəcəyini, xalqımızın yenilməz, məğrur olduğunu bir daha dünyaya göstərdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub. Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub və SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən avtomobillərə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib.

1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır. Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib: "…Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və … hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm…Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı …Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır. Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir".



Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edib.



1994-cü il martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib.

Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

Sonda Xızı rayon Statistika İdarəsinin rəisi Rövşən Quliyev və idarə əməkdaşları 20 Yanvar faciəsinin 35-ci ildönümü münasibətilə Şəhidlər memorial abidə kompleksini ziyarət edərək 20 Yanvar faciəsi qurbanlarının xatirəsini yad ediblər.

03_27 IYUl-QARA.qxd 1/23/2025 7:51 PM Page 14



# Vətəni canından artıq sevən Fərid

***Vətən, torpaq sevgisi Fərid Quliyevin canına, qanına ana südü ilə birgə hopmuşdu. Odur ki, 44 günlük haqq savaşımızda doğma Azərbaycanın bütövlüyü uğrunda sinəsini sipər etməyi bacardı. Özü şəhid olsa da, Vətəni canı, qanı bahasına alınmaz qalaya çevirdi. Bu hünərlə Fəridin ömrü qısa oldu, amma torpağına, elinə-obasına məhəbbət mücəssəməsinə döndü, şərəfli həyatı əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazıldı. Ölümsüzlüyə qovuşan qəhrəmanımız həm də dövlət tərəfindən "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.***



Fərid Ayazxan oğlu Quliyev 1994-cü ildə Cəlilabad rayonu, Babalı kəndində dünyaya göz açıb. Təmiz, müqəddəs bir ailə ocağında boy atıb müstəqil həyata qədəm qoyan Fəridin yaxşı işləri, xeyirxah əməlləri tez də ona hörmət, nüfuz qazandırır. Vətən eşqi, el sevdası qəlbinə hakim kəsilmiş gənc bir qayda olaraq erməni dığaların Qarabağımızın işğalına qarşı barışmaz mövqe ortaya qoyur. Odur ki, əsgərlik yaşı çatanda yağıdan qisas almaq məqsədilə 2012-ci ildə ordu sıralarına böyük həvəslə yola düşür. Cəbhə bölgəsində xidmət etməklə Vətəni göz-bəbəyi kimi qoruyur. Köksündə əsl qəhrəman ürəyi döyünən Fərid komandirlərin, əsgərlərin sevimlisi olur.



Fərid əsgərlik həyatını üzüağ başa vurur. Amma müqəddəs Qarabağımızın düşmən tapdağında qalması ona rahatlıq vermir. Qeyrət qanı coşan Vətən sevdalısı 2019-cu ilin oktyabr ayında Dövlət Sərhəd Xidmətinə yazılır. İlkin hazırlıq kursunu keçdikdən sonra 13.03.2020-ci il tarixdən xidmətini davam etdirmək üçün Sərhəd Qoşunlarının Xudat sərhəd dəstəsinə göndərilir. Fərid xidmətini kəşfiyyatçı kimi davam etdirmək istəyirdi. Odur ki, arzusu nəzərə alınır. Qazax əlahiddə sərhəd diviziyasında nümunəvi xidmət etməklə bərabər, həm də hər an işğalçı düşməndən Vətən torpaqlarının qisasını alacağı günü gözləyir. Məqsədinə nail olmaq üçün hərbi təlimlərdə həvəslə iştirak etməklə bütün sınaqlardan uğurla keçir. Həmçinin Ermənistanla bilavasitə həmsərhəd ərazilərdə xidmət çətin olsa da, bir o qədər Fərid bununla qürur duyur və öz vəzifələrinin öhdəsindən layiqincə gəlir...

Sentyabrın 27-də 44 günlük haqq savaşımız başlayanda kiçik gizir Fərid Quliyev birbaşa odun-alovun içinə atılır. Sinəsini Vətənə sipər edib məkrli düşmənin kabusuna çevrilir. Əsl qəhrəman olduğunu isə döyüş meydanında erməni dığalarına qan udurmaqla bildirir. Xocavənd rayonu ərazisində iştirak etdiyi bir-neçə ölüm-dirim savaşında çoxlu sayda dığanı, onların texnikasını məhv edir.

Lakin onun döyüş yolu qısa oldu, o, böyük Zəfəri görə bilmədi. 9 oktyabrda Hadrutda gedən ağır müharibə meydanında qəfil atılan yağı gülləsinə tuş gəlir və 26 yaşlı Fəridin döyünən ürəyi əbədi olaraq dayanır.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# 2024-cü ildə Samuxda bitkiçilik məhsullarının toplanışı haqqında

***2024-cü ilin məhsulu üçün rayon üzrə 23428,8 hektar sahə əkin altında olmuşdur ki, bu sahələrin də 11516,4 hektarı və ya 49,2 faizini payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilər, 2911,0 hektarı və ya 12,4 faizini texniki bitkilər, 930,1 hektarı və ya 3,9 faizini toxumluq tərəvəzdə daxil olmaqla kartof, tərəvəz, bostan bitkiləri, 8071,3 hektarı və ya 34,5 faizini payızlıq xəsil daxil olmaqla yem bitkiləri təşkil etmişdir.***



Yuxarıda qeyd olunan sahələrdən 55917,2 ton payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilər, 9882,9 ton texniki bitkilər, 18930 ton toxumluq tərəvəzdə daxil olmaqla kartof, tərəvəz, bostan bitkiləri, 69261,3 ton quru ot toplanmışdır.

2024-cü ilin məhsulu üçün təsərrüfatlar tərəfindən istixanalarda 43,5 hektar sahədə tərəvəz bitkiləri əkilmişdir və həmin sahələrdən 2939,5 ton bitkiçilik məhsulları yığılmışdır.

İstixanalarda istehsal olunan bitkiçilik məhsullarının 563,1 tonu və ya 19,2 faizi xiyar, 2349,0 tonu və ya 79,9 faizi pomidor, 27,4 tonu və ya 0,9 faizi isə sair bitkiçilik məhsulları olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# 13 minə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib




***Son bir ildə əlilliyi olan 13 minə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib.***

Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.

Bildirilib ki, nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi onlardan 10,9 min şəxsi münasib işlərlə təmin edib.

Həmçinin ötən il əlilliyi olan 1,5 min şəxs özünüməşğulluq proqramına cəlb edilib. Onlar proqram çərçivəsində mal və materiallarla təmin olunaraq öz kiçik təsərrüfatlarını qurublar.

Eyni zamanda agentlik tərəfindən son bir ildə əlilliyi olan 500-ə yaxın şəxs isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığına cəlb edilib.

# Ev quşlarının kəsimi məntəqəsində nöqsanlar aşkarlandı

***Bakı şəhəri, Sabunçu rayonu, İ.Rəhimov küçəsi 14 ünvanında fəaliyyət göstərən ev quşlarının kəsimi məntəqəsində yoxlama zamanı ciddi nöqsanlar aşkarlanıb. Belə ki, fiziki şəxs Kərimov Ramiz Raqub oğluna məxsus müəssisənin antisanitar şəraitdə fəaliyyət göstərdiyi məlum olub.***

Bu barədə "Unikal"a AQTA-dan məlumat verilib. Bildirilir ki, qida təhlükəsizliyi sahəsində normativ tələblərə əməl edilmədiyi, kəsim üçün müəssisəyə daxil olan quşların baytarlıq müayinəsindən keçirilmədiyi, kəsimdən sonra quş ətinin keyfiyyətinə baytar həkim tərəfindən nəzarət olunmadığı müəyyən edilib.

Eyni zamanda müəssisədə satış məqsədi ilə baytarlıq (baytarlıq-sanitariya) ekspertizası aparılmadan 230 baş ev quşunun kəsildiyi aşkarlanıb. Tələblərə uyğun olmayan quş cəmdəklərinin satışa çıxarılmasının qarşısı alınıb, məhsullardan nümunələr götürülərək laboratoriyaya təqdim edilib.

Faktla bağlı müvafiq tədbirlər görülüb, müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.

# 2024-cü ildə Ağdaş rayonunda meyvə, dənli və dənli paxlalıların istehsalı artıb



***Rayonda ümumi sahəsi 3 min 742,4 hektar olan meyvə bağlarından 45 min 408,0 ton məhsul istehsal olunmuşdur.***

Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,5 faiz və ya 6 min 89,6 ton çoxdur. Meyvə bağlarının 1 min 545,0 hektarını xurma bağları təşkil edir. Bağlardan 25 min 643,4 ton xurma, 4 min 988,8 ton alça, 7 min 578,1 ton nar, 2 min 520,7 ton heyva, 1 min 994,9 ton gilas, 598,8 ton gavalı və digər meyvələr istehsal olunmuşdur.

Rayonda 2024-cü ildə qarğıdalı da daxil olmaqla 16 min 939,0 hektar sahədən 51 min 612,1 ton, əvvəlki illə müqayisədə 0,1 faiz və yaxud 59,2 ton çox dənli və dənli paxlalılar toplanmışdır. Dənli və dənli paxlalı bitkilərin tərkibində arpa bitkisi xüsusi yer tutmuşdur. İstehsal olunmuş dənli və dənli paxlalıların 34 min 813,4 tonu arpa, 11 min 637,8 tonunu isə buğda təşkil etmişdir.

İl ərzində rayonda 1 min 578,0 hektar əkin sahəsindən 33 min 969,7 ton, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz və ya 1 min 138,4 ton az tərəvəz və bostan məhsulları toplanmışdır. İstehsal olunmuş tərəvəz və bostan məhsullarının arasında pomidor, xiyar və kələm əsas yer tutmuşdur. Mövsüm ərzində 100,3 hektar sahədə təkrar tərəvəz bitkiləri əkilmişdir.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Azərbaycanın pomidor ixracı artıb

***2024-cü ildə Azərbaycandan pomidor ixracında artım qeydə alınıb.***

"Unikal" Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, 2024-cü ildə Azərbaycandan 175 milyon 430 min dollar dəyərində 145 min 603 ton pomidor ixrac olunub. Bu, 2023-cü illə müqayisədə dəyər baxımından 8,3%, miqdar baxımından isə 3,6% artım deməkdir. 2023-cü ildə 161 milyon 984 min dollar dəyərində 140 min 588 ton pomidor ixrac edilmişdi. Beləliklə, 2024-cü ildə pomidor ixracının dəyəri 13 milyon 446 min dollar, miqdarı isə 5 min 15 ton artıb.

03_27 IYUI-QARA.qxd 1/23/2025 7:52 PM Page 15



## "Ukraynada Putin deyil, o qalib gəlməlidir" - Zelenski



***"Ukraynadakı münaqişəyə son qoyulması Rusiya lideri Vladimir Putinin deyil, ABŞ prezidenti Donald Trampın qələbəsi olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Volodimir Zelenski "Bloomberg TV"yə müsahibəsində deyib.

O, danışıqlara başlamazdan əvvəl ümumi fəaliyyət planı hazırlamağa çağırıb.

"Ukraynada müharibənin dayandırılması məsələsi, mən hesab edirəm ki, Putinin yox, Trampın qələbəsi olmalıdır. Putin onun üçün heç nə deyil. Amerika daha güclüdür, Avropa daha güclüdür, Çin Rusiyadan güclüdür", - Zelenski deyir.

O, münaqişəyə son qoymaq üçün Rusiya ilə danışıqlara başlamazdan əvvəl birgə fəaliyyət planı formalaşdırmağa çağırıb. Onun sözlərinə görə, bu cür hadisələr ABŞ, Avropa İttifaqı, Ukrayna və onun xalqının maraqlarına uyğun olacaq.

***Gülayə Mecid***

## "KTMT ilə bağlı siyasi qərar vermişik" - Ermənistan TŞ



***"Bizim bütün qərarlarımız açıqdır. İstər KTMT-yə aid olsun, istərsə də başqa ölkə ilə bağlı heç bir qərar məxfi ola bilməz".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan açıqlayıb.

O, Ermənistanın KTMT-dən kənarda olub-olmaması məsələsinə toxunub: "Biz vəziyyəti qiymətləndiririk və ona uyğun qərar qəbul edirik. Biz KTMT ilə bağlı siyasi qərar vermişik. O qərarlar açıqdır və siz hamınız onlardan xəbərdarsınız. Yeni qərar olarsa, bu barədə sizə məlumat veriləcək".

***Ağarza Elçinoğlu***

## "ABŞ getdikcə deqradasiyaya uğrayır" - Narışkin

***"ABŞ-nin simasında keçmiş dünya hegemonu getdikcə aşağı düşür və vəziyyətə nəzarəti itirir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin "RİA Novosti"yə müsahibəsində bildirib.

O, vurğulayıb ki, bu fonda formalaşmaqda olan çoxqütblü dünya şəraitində yeni güclü və nüfuzlu oyunçu dövlətlər yaranır. Xarici Kəşfiyyat Xidmətinin rəhbərinin sözlərinə görə, sözügedən dövlətlər artıq böyük inkişaf potensialına və dünyada təhlükəsizliyi və sabitliyi təmin etmək imkanlarına malikdirlər.

***Gülayə Mecid***

## "Ermənistanda sabitliyi pozmaq istəyənlər var"

***"Ermənistanda xarici qüvvələrin iqtisadi rıçaqlardan istifadə edərək ölkədə sabitliyi pozmaq istəyir".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Xarici Kəşfiyyat Xidməti məlumat yayıb.

Xidmət hesabatında bildirib ki, Ermənistan xarici qüvvələrin ölkədə sabitliyi pozmaq cəhdlərindən ehtiyat edir. Həmçinin, materialda ölkədəki vəziyyəti sabitləşdirmək üçün "xarici aktorlar" süni logistik əngəllər yaratmağa çalışdıqları qeyd olunub.

# "Azərbaycana konkret təkliflər göndərmişik" - Hovhannisyan

***"Danışıqların formatı ilə bağlı heç nəyi istisna etmək istəmirəm. Biz demişik ki, Ermənistan Respublikasının maraqlarından və bütövlükdə dövlətlərin suverenliyindən irəli gələn prinsiplər bizim üçün məqbuldur.".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın hakim "Mülki Müqavilə" fraksiyasının katibi Artur Hovhannisyan parlamentdə keçirilən brifinqdə açıqlayıb.



Onun sözlərinə görə, Ermənistan XİN rəhbərinin Moskva səfəri də bununla bağlı olub: "9 noyabr bəyanatında heç bir ekstraterritoriyadan bəhs edilmir, çünki təklif yoxdur. Biz yolların blokunun açılmasından, hər bir dövlətin suverenliyi altında infrastrukturun yenidən işə salınmasından danışırıq.

Biz Azərbaycanla ikitərəfli formatda danışıqlar aparırıq, rusiyalı tərəfdaşlarımızla onların platformasında danışırıq, Aİ tərəfdaşlarımızla müzakirələr aparırıq, Amerika Birləşmiş Ştatlarındakı tərəfdaşlarımızla, müxtəlif beynəlxalq platformalarda müzakirələr aparırıq. Azərbaycan rəsmiləri olanda görüşlər keçirilir, yeni müzakirələr çoxşaxəli olur və biz sülh gündəmini irəli aparmaq üçün bütün imkanlardan istifadə edirik. Ona görə də indi Ermənistan-Azərbaycan ikitərəfli dialoq nümunəsi var və biz Azərbaycana yolların açılması ilə bağlı çox konkret təkliflər göndərmişik".

***Ağarza Elçinoğlu***

# "On minlərlə qatil ABŞ-da sərbəst gəzir" - Tramp

***"On minlərlə cinayətkar - terrorçular və qatillər ABŞ-dadır və maneəsiz şəkildə ölkədə gəzirlər".***

"Unikal" xəbər verir ki, bunu Vaşinqton administrasiyasının yeni rəhbəri Donald Tramp deyib.

O, andiçmə mərasimindən sonra "Fox News"a verdiyi ilk müsahibəsində "Ölkəmizdə minlərlə terrorçu, on minlərlə qatil var", - deyib.

"İnsanlar həbsxanalarını boşaltdılar. Mən başqa ölkənin prezidenti və ya baş naziri olsaydım, həbsxanalarımı boşaltardım və cinayətkarların birbaşa ABŞ-a girməsinə icazə verərdim, niyə də olmasın? Və çoxları bunu etdi", - Tramp ifadə edib. Respublikaçı bu vəziyyəti demokrat Co Baydenin əvvəlki administrasiyasının siyasəti ilə əlaqələndirib.

***Gülayə Mecid***



# Yanğında ölənlərin hamısının şəxsiyyəti müəyyənləşdi - Hotel möhürləndi

***Türkiyə Ədliyyə Nazirliyi Boludakı Kartalkaya Xizək Mərkəzində baş verən yanğınla bağlı son vəziyyəti açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı nazirliyə istinadən məlumat yayıb. Nazirlikdən verilən açıqlamada ölənlərin sayının 78 olduğu (dünənki rəsmi açıqlamada 79 deyilirdi) vurğulanıb: "Boluda baş verən yanğında ölənlərin hamısının şəxsiyyəti müəyyənləşib. Yanğında həyatını itirənlərin sayı 78 nəfərdir".



Axtarış işləri tamamlandıqdan sonra faciə baş verən "Grand Kartal" hoteli möhürlənib. İstintaqda istifadə oluna biləcək bütün sübutlar qapalı şəraitdə toplanıb. İstintaq növbətçi 6 dövlət ittihamçısı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və əmlak müfəttişləri tərəfindən davam etdirilir.

Ədliyyə naziri Yılmaz Tunç sosial şəbəkədə istintaq prosesi ilə bağlı paylaşım edib. O, istintaqın böyük həssaslıqla aparıldığını bildirib.

Nazir Bolu Bələdiyyə Başçısının müavini, Xilasetmə İdarəsinin müdiri, müəssisə sahibi, şirkətin baş direktoru və otel müdirinin də olduğu 11 nəfərin istintaq çərçivəsində tutulduğunu açıqlayıb.

Səhiyyə Nazirliyi yaralılardan 39-nun evə buraxıldığını bildirib. 12 nəfərin isə xəstəxanalarda müalicəsi davam edir.

***Ağarza Elçinoğlu***

# ABŞ-nin dövlət katibi Netanyahuya zəng etdi

***ABŞ-nin dövlət katibi Marko Rubio və İsrailin baş naziri Benyamin Netanyahu arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Tammy Bryus məlumat yayıb.

O, bildirilib ki, telefon danışığında Rubio ABŞ-nin İsrailə sarsılmaz dəstəyini vurğulayıb və bunun ABŞ prezidenti Donald Tramp üçün əsas prioritet olduğunu deyib.

Rubio görüş zamanı Qəzzada bütün əsirlərin azad edilməsi üçün fəaliyyətlərini davam etdirəcəklərinə söz verib.

***Gülayə Mecid***



03_27 IYUI-QARA.qxd 1/23/2025 7:52 PM Page 16



# Misli Premyer Liqasında XX turun hakimləri bəlli oldu



***Misli Premyer Liqasının XX turunda keçiriləcək qarşılaşmalara hakim təyinatları açıqlanıb.***

"Unikal" AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, "Şamaxı" və "Zirə" komandaları arasında keçiriləcək açılış oyunu İnqilab Məmmədova tapşırılıb.

FIFA referilərindən Əliyar Ağayev "Səbail" - "Kəpəz" matçını, Elçin Məsiyev "Sabah" - "Sumqayıt" görüşünü idarə edəcək.

**24 yanvar**

14:00."Şamaxı" - "Zirə"

Hakimlər: İnqilab Məmmədov, Namik Hüseynov, Rahil Ramazanov, Əkbər Əhmədov

VAR: Rauf Allahverdiyev

AVAR: Vüsal Məmmədov

Hakim-inspektor: Munis Abdullayev

Şamaxı şəhər stadionu.

**25 yanvar**

16:00. "Səbail" - "Kəpəz"

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Fərid Hacıyev

VAR: Tural Qurbanov

AVAR: Elşad Abdullayev

Hakim-inspektor: Rəhim Həsənov

ASCO Arena.

18:30."Sabah" - "Sumqayıt"

Hakimlər: Elçin Məsiyev, Pərvin Talıbov, Rəhman İmami, Rəşad Əhmədov

VAR: Nicat İsmayıllı

AVAR: Asiman Əzizli

Hakim-inspektor: Orxan Məmmədov

"Bank Respublika Arena"

**26 yanvar**

16:00. "Araz-Naxçıvan" - "Neftçi"

Hakimlər: Rauf Cabarov, Zöhrab Abbasov, Teymur Teymurov, Elvin Bayramov

VAR: İnqilab Məmmədov

AVAR: Namik Hüseynov

Hakim-inspektor: İmanxan Sultani

"Liv Bona Dea Arena".

18:30. "Qarabağ" - "Turan Tovuz"

Hakimlər: Cavid Cəlilov, Müslüm Əliyev, Eyyub İbrahimov, Kamranbəy Rəhimov

VAR: Əliyar Ağayev

AVAR: Zeynal Zeynalov

Hakim-inspektor: Ceyhun Haşımov

Tofiq Bəhramov adına Respublika Stadionu.

# "Ən qısa zamanda "Qarabağ"la yoldaşlıq oyunumuz olacaq" - "Qalatasaray" rəsmisi

***"Qarabağ"la Türkiyənin "Qalatasaray" klubu arasında daha bir yoldaşlıq matçı keçiriləcək.***

QOL.az-a açıqlamasında bu barədə İstanbul klubunun İdarə Heyətinin üzvü Emin İmanov məlumat verib.

Matçın ən yaxın zamanda keçiriləcəyini deyən klub rəsmisi dəqiq tarixin hələ ki, müəyyənləşmədiyini bildirib: "Qarabağ"la əməkdaşlığımız yüksək səviyyədə davam edir. Bu il daha bir yoldaşlıq oyunu



keçirmək istəyirik. Oyun İstanbulda olacaq. Hər iki komanda Avropa Liqasında çıxış edir. Ona görə də oyun qrafikləri sıxdır. Amma inşallah bir oyun təşkil olunacaq. Vaxtı demək bir az çətindir. Çünki dediyim kimi, komandaların oyun sayı çoxdur. Klub rəhbərliyi arasında danışıqlar gedir. Yəqin ki, ən qısa vaxtda matç keçirilər".

Xatırladaq ki, "Qarabağ"la "Qalatasaray" 2023-cü il martın 26-da Bakıda qarşılaşıb. Həmin yoldaşlıq matçı Türkiyə klubunun 2:1 hesablı qələbəsi ilə başa çatıb.

# Azərbaycan komandası dünya qar polosu yarışında...



***Yanvarın 24-26-da İsveçrənin Sankt - Moritz şəhərində qar polosu üzrə 40-cı dünya kuboku start götürür.***

"Qafqazinfo" xəbər verir ki, ölkəmizi yarışlarda "Land of Fire" komandası təmsil edir.

Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə növbəti dəfə yarışa qatılan "Land of Fire" komandası bundan əvvəl Sankt - Moritzdə iki dəfə - 2022-ci və 2023-cü illərdə qar polosu üzrə dünya kubokunun sahibi olub.

Yarışlar zamanı Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan pavilyonu da fəaliyyət göstərəcək.

İştirakçılar Azərbaycan pavilyonunda Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" nəşrindəki foto və videomateriallar, eləcə də qədim çövkən oyununa dair müxtəlif sərgilərlə tanış ola biləcək.

Pavilyonda Azərbaycanın müxtəlif milli brendləri - milli şirniyyatları təqdim edən "Xurcun", qədim üzümçülük və şərabçılığın tarixini yaşadan "Meysəri, "MEYVİ", "I Love Baku"nun məhsulları sərgilənəcək.

Dövlət Turizm Agentliyi qonaqlar üçün Azərbaycanın görməli yerlərinə virtual səyahət də təşkil edəcək, "AzerGold" QSC isə qızıl və gümüş sikkələri təqdim edəcək.

# "Barselona" ilə 5,5 illik müqavilə imzalayır



***"Barselona" futbolçusu Ronald Arauxo ilə yeni müqavilə imzalayır.***

"Unikal" xəbər verir ki, bu barədə insayder Fabrizio Romano məlumat yayıb.

Onun yeni müqaviləsi 2031-ci ilin iyun ayına qədər olacaq. Kataloniya klubunun uruqvaylı müdafiəçi ilə sabah müqavilə imzalayacağı bildirilir.

Qeyd edək ki, Ronald Arauxo bu mövsüm "Barselona"nın heyətində 5 oyuna çıxıb və 1 qolun ötürməsini edib.

# PSJ "Siti" ilə oyunda geridönüş etdi



***UEFA Çempionlar Liqasının əsas mərhələsində VII tura yekun vurulub.***

"Unikal" xəbər verir ki, azarkeşlər son oyun günündə 9 qarşılaşmanı izləyiblər.

PSJ Fransada İngiltərənin "Mançester Siti" klubunu 4:2, "Real Madrid" isə İspaniyada Avstriyanın "Zaltsburq" komandasını 5:1 hesabı ilə məğlub edib.

UEFA Çempionlar Liqası: Liqa mərhələsi, VII tur

"Şaxtyor" (Ukrayna) - "Brest" (Fransa) - 2:0

"Leyptsiq" (Almaniya) - "Sportinq" (Portuqaliya) - 2:1

PSJ (Fransa) - "Mançester Siti" (İngiltərə) - 4:2

"Real Madrid" (İspaniya) - "Zaltsburq" (Avstriya) - 5:1

"Feyenoord" (Niderland) - "Bavariya" (Almaniya) - 3:0

"Milan" (İtaliya) - "Jirona" (İspaniya) - 1:0

"Sparta" (Çexiya) - "İnter" (İtaliya) - 0:1

"Seltik" (Şotlandiya) - "Yanq Boys" (İsveçrə) - 1:0

"Arsenal" (İngiltərə) - "Dinamo" (Xorvatiya) - 3:0

# ÇL-də həftənin ən yaxşısı adına namizədlər



***Çempionlar Liqasında Liqa mərhələsinin 7-ci turunun matçlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər açıqlanıb.***

Bunlar "Real"dan Vinisius, "Atletiko"dan Xulian Alvares, "Barselona"dan Rafinya və PSV-dən Luk de Yonqdur.

Sözügedən oyunçuların hər biri 7-ci tur görüşlərində dubla imza atıblar. Vinisius "Zalsburq"a (5:1), Alvares "Bayer"ə (2:1), Rafinya "Benfika"ya (5:4), De Yonq isə "Srvena Zvezda"ya (3:2) 2 qol vurub.

Qalib UEFA-nın rəsmi saytındakı səsvermə ilə müəyyənləşəcək.

# "Son şansımız qaldı..." - Qvardiola



***"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola Çempionlar Liqasının 7-ci turunda PSJ-yə uduzduqdan (2:4) sonra komandasının turnirin pley-off mərhələsinə yüksəlmək şanslarından danışıb.***

"Qafqazinfo" bu barədə "Sky Sport"a istinadən xəbər verir.

"Çempionlar Liqasından kənarlaşmaq? Əlbəttə ola bilər. Son oyunda qalib gələ bilməsək, pley-offdan necə danışa bilərik? Biz buna layiq deyilik. Bu, həqiqətdir, kifayət qədər xal qazanmadıq və bunu qəbul etməliyik. "Brügge" ilə ev oyununda son şansımız qaldı... Ümid edirəm vəsiqə qazana bilərik", - mütəxəssis bildirib.

Xatırladaq ki, Qvardiolanın komandası liqa cədvəlində 25-ci pillədə qərarlaşıb 8-ci turun həlledici oyununda İngiltərə klubu doğma stadionunda Belçikanın "Brügge" klubu ilə qarşılaşacaq.